# QARABAĞ AZƏRBAYCANDIR!

## Ulu Öndər Heydər Əliyev və Azərbaycan dilinin inkişafı



8

# Səs

№ 015 (6698) 27 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

## Azərbaycan dünya birliyi üçün etibarlı və vacib tərəfdaşdır!



2

# Zorakılıq fonunda




7




11

## Yaxın günlərdə əfv olacaq?



14

## Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas məqamları açıqlandı



4

## Muzeyləri gəzmək bizə nə verir?



10

## 50 ilin hesabatı TƏBRİK



10

# Azərbaycan dünya birliyi üçün etibarlı və vacib tərəfdaşdır!

## Prezident İlham Əliyev dünən bir sıra ölkələrin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib

***Prezident İlham Əliyev dünən Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Daha sonra dövlətimizin başçısı səfirlə söhbət edib.***

Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələrin qurulmasının keçən il 30 illiyinin qeyd olunduğunu vurğulayaraq, ötən müddət ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti qarşıdakı dövrün ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq baxımından daha da səmərəli olacağına ümidvarlığını ifadə edib. Səfir Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Fransaya səfərini xatırladı, ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan ilə Fransa arasında münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini bildirib.







Söhbət zamanı regional məsələlərə də toxunulub. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın əsassız iddialar irəli sürdüyünü qeyd edərək, bu iddiaların tamamilə yalan və cəfəng olduğunu qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir. Dekabrın 12-dən etibarən 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yol ilə hər iki istiqamətdə keçidi təmin olunub.

Dövlətimizin başçısı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasının və ölkəmizin bu yataqlar üzərində daimi monitorinqinin təmin edilməsinin vacibliyini vurğulayıb. Prezident İlham Əliyev səfirə Azərbaycandakı diplomatik fəaliyyəti dövründə uğurlar arzulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul edib. Səfir Xristos Kapodistrias etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin ölkələrimizi birləşdirdiyini və bütöv bir regionun inkişafına töhfə verdiyini, ümumi maraq kəsb edən layihə olduğunu bildirib. Həmçinin Yunanıstanın Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynadığını qeyd edib.

Prezident İlham Əliyev Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılış mərasimində iştirakını məmnunluqla xatırlayıb və bu layihənin Avropanın enerji təhlükəsizliyinə töhfə verməsinin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu deyib.

Səfir Xristos Kapodistrias Azərbaycanda fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib. Diplomat xüsusilə elm, təhsil, mədəniyyət, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Görüşdə, həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı məsələlərinə də toxunulub, Yunanıstanın Azərbaycanın hər iki təsisatla əlaqələrinin genişləndirilməsini dəstəklədiyi qeyd olunub.

Söhbət zamanı regional məsələlərə toxunularaq, Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr haqqında məlumat verilib, yolun guya bağlı olması barədə Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu bildirilib. Dövlətimizin başçısı qeyd edib ki, dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki şəxslərin və mülki yüklərin, 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yolla hər iki istiqamətdə hərəkəti təmin olunub.



Dövlətimizin başçısı yanvarın 26-da Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyeronun etimadnaməsini də qəbul edib.

Səfir Mariya Viktoriya Romero Kabalyero etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Prezident İlham Əliyev ölkələrimiz arasında coğrafi məsafənin uzaq olmasına baxmayaraq, əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu bildirib.

Səfir də ölkələrimiz arasında əməkdaşlıq üçün çoxlu imkanların mövcudluğunu qeyd edib, xüsusilə enerji, investisiyalar, elm, təhsil və digər sahələrdə geniş potensialın olduğunu vurğulayıb. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə də toxunulub. Səfir Meksikanın Qoşulmama Hərəkatı yanında müşahidəçi dövlət olaraq Azərbaycanın Hərəkatın sədri kimi təşəbbüslərini izlədiyini və ölkəsinin "Cənub-Cənub" əməkdaşlıq prosesini dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini qeyd edərək, ölkəmizin Hərəkatın sədri olaraq onun təsisatlanması istiqamətində, o cümlədən Hərəkatın Gənclər Şəbəkəsinin və Parlament Şəbəkəsinin yaradılması təşəbbüsləri ilə çıxış etdiyini bildirib.

Görüşdə həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunub. Səfir Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 755-VIQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasının bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Əli Cavad oğlu Əhmədov "Şərəf" ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, o, Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirakına və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə təltif olunub.

# Heydər Əliyev-100

**Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan, yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarətmə bacarığına görə dünyada nadir tarixi şəxsiyyətlər sırasında olan Ulu Öndər Heydər Əliyev əməlləri ilə əbədiyaşarlıq zirvəsinə yüksəlib. Siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü Azərbaycanın qurucusu və yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyəti ilə xalqımızın firavanlığını və xoşbəxtliyini təmin etmişdir.**

## Heydər Əliyev və Azərbaycan səhiyyəsi



Siyasi dünyagörüşü, zəngin dövlət təcrübəsi ilə dövlətçiliyin, azərbaycançılıq ideyasının elmi-nəzəri və təcrübi əsaslarını yaradan görkəmli dövlət xadimi ölkə tarixində mühüm proseslərin həyata keçirildiyi zamanda ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. O, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində misilsiz fəaliyyət göstərərək fundamental uğurlara imza atıb. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından - 1993-cü ildən sonra Azərbaycan dövlətinin dirçəlməsində, onun mövqeyinin, təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Ulu Öndər Heydər Əliyevin hələ sovet məkanında və müstəqillik illərində xidmətlərinin əhəmiyyəti ictimai-siyasi həyatımızda özünü göstərmişdir. Dahi Şəxsiyyət xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycanı bəxş etmişdi.

### TİBB SAHƏSİNDƏ YENİ NƏSLİN NÜMAYƏNDƏLƏRİ YETKİN TƏDQİQATÇILAR KİMİ

Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycanı gerilikdən, tənəzzüldən xilas etdi. Kənd təsərrüfatının, sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində, əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi. Heydər Əliyev Azərbaycanın bütün sahələrinin inkişafı ilə yanaşı, səhiyyənin də sivil ölkələr səviyyəsinə yüksəlməsinə çalışmış, bu istiqamətdə böyük nailiyyətlə əldə olunmuşdur. İnsanların fiziki və ruhi sağlamlığı ölkənin inkişafında həlledici rol oynayan amillərdən olduğundan ötən əsrin 60-cı illərinin sonu - 70-ci illərin əvvəllərində, Dahi Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən səhiyyədə ciddi inkişaf dövrü başladı. Ümummilli Lider Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlərə kompleks yanaşdı. Təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa olundu. Köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, eləcə də, əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi və s. istiqamətdə tədbirlər həyata keçirildi. Qısa zaman məsafəsində, ölkədə Urologiya Xəstəxanası, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz, Ailə Planlaşdırması Mərkəzi və sair tibb müəssisələri yaradıldı və əhalinin istifadəsinə verildi. Milli Onkologiya Mərkəzinin yeni korpusunun və Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni kompleksinin tikintisinə başlandı. Heydər Əliyev respublikamızın səhiyyə sistemi sahələrinin beynəlxalq miqyasa çıxmasına, onların dayanıqlı və sabit inkişafına əlverişli şərait yaratmışdı. Azərbaycanın sözügedən sistemlərində ölçüyəgəlməz islahatlar aparılır, o zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilir, tibbi kadr hazırlığında öz sözünü cəsarətlə deyə bilirdi.

Başqa sözlə, tibbi fənlərin diploma qədərki və diplomdan sonrakı tədrisinin, tələbələrin və məzunların peşə hazırlığının, eləcə də abituriyentlərin instituta qəbulunun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunda internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı, daha sonralar Tibbi-biologiya fakültəsi və dekanlığı, Hərbi-tibb fakültəsi və dekanlığı, mətbuat və informasiya xidməti və digər köməkçi şöbələr yaradılmışdı.

### APARILAN İSLAHATLAR SƏHİYYƏNİN SƏMƏRƏSİNİN İNTENSİVLƏŞDİRİLMƏSİNƏ BAZA YARATDI

Böyük Şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu işlərin bir hissəsi, müvəqqəti olaraq təxirə salınsa da, müstəqillik dövründə yenidən həyata keçirməyə və genişmiqyaslı islahatların aparılmasına başladı. Müstəqilliyimizin ilk illərindəki ictimai-siyasi hadisələr, yaşanılan böhran əhalinin sağlamlığının pisləşməsinə səbəb olmuşdur. Demoqrafik göstəricilərin pisləşməsi ilə yanaşı, təhlükəli infeksion xəstəliklər çoxalmışdır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bir sıra fərman və sərəncamların imzalanması, tibb sahəsində həyata keçirdiyi islahatlar səhiyyənin səmərəsinin intensivləşdirilməsinə baza yaratdı. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1998-ci il tarixli Sərəncamı ilə səhiyyə sistemində islahatların təşkili və aparılması məqsədilə Hökumət Komissiyası yaradıldı. Bütün bunlarla yanaşı, səhiyyə sahəsində beynəlxalq əlaqələrin genişlənməsinə də diqqət ayrıldı.

1994-cü ildən başlayaraq, Respublika Səhiyyə Nazirliyində xarici əlaqələr üzrə xüsusi əlaqələr yaradıldı. Bu şöbə yarandığı vaxtdan öz fəaliyyətini milli səhiyyənin Ümumdünya Səhiyyə Təşkilatı, BMT Uşaq Fondu kimi öncül beynəlxalq strukturlar və ölkədə təmsil olunan bir sıra qeyri-hökumət beynəlxalq humanitar təşkilatlarla fəal əməkdaşlığı üzərində qurdu.

### "SON İLLƏR ƏRZİNDƏ TƏMİR EDİLMİŞ, YAXUD DA Kİ, YENİ TİKİLMİŞ MƏRKƏZLƏR BÜTÜN CƏHƏTLƏRDƏN ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR"

Ümummilli Liderin başladığı işlər bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq, iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin dinamik iqtisadi inkişafı demoqrafik və tibbi statistik göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 600-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib. Maddi-texniki bazası gücləndirilən tibb müəssisələri dünyanın qabaqcıl səhiyyə ocaqlarından geri qalmır, hətta mübaliğəsiz desək, onları üstələyir. Respublika Klinik Uşaq Xəstəxanasında, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda, Uşaq Nevroloji Xəstəxanasında, Respublika Diaqnostika Mərkəzində, 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasının 4 korpusunda, 3 nömrəli Klinik Uşaq Xəstəxanasında, Xaçmaz rayon Mərkəzi Xəstəxanasında, Şirvan şəhər Mərkəzi Xəstəxanasında, Bərdə rayon Doğum Evində təmir və yenidənqurma işləri aparılmış, Ağdaş, Şəki, Tovuz, Daşkəsən, Şabran rayonlarında yeni mərkəzi xəstəxanalar, Ucarda Uşaq Xəstəxanası və s. tikilib istifadəyə verilmişdir. Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsinə uyğunlaşdırılır. Azərbaycan Prezidenti İlham Əliyev "Biz artıq Azərbaycan standartlarından da danışa bilərik" deməklə, Azərbaycan səhiyyəsindəki gerçəkliklərə əsaslanır: "İndi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palatalaların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq."

### "İNSAN SAĞLAMLIĞI SOSİAL MƏSƏLƏLƏR ARASINDA ƏN BİRİNCİ YERDƏDİR VƏ BU GÜN AZƏRBAYCANDA BU SAHƏDƏ GÖZƏL NƏTİCƏLƏR VAR"

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. Müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır. Müasir informasiya texnologiyalarının səhiyyə sisteminə tətbiq edilməsi sahəsində "Elektron Azərbaycan" Dövlət Proqramı çərçivəsində "Vətəndaşların elektron sağlamlıq kartı" sistemi fəaliyyət göstərir. Uğurlarla yanaşı, ölkəmizdə səhiyyə sahəsində hələ görüləsi işlər də var. Səhiyyə sisteminin islahatları nəticəsində, əsasən, stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılacaq, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılacaqdır.

Sosial sahəyə diqqət və qayğının nəticəsidir ki, dövlət büdcəsi təsdiq olunarkən sosialyönümlülük prioritet olaraq qalır. Bu, bir daha təsdiq edir ki, Azərbaycanda aparılan siyasətin mərkəzində, məhz insan amili dayanır və ölkə rəhbərliyinin sosial siyasətinin fəlsəfəsi bütün vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Azərbaycanda həyata keçirilən sosial siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, bu inkişaf əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib. Səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir. "İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır. "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair 2015-2020-ci illər üzrə Strategiya"sı "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və s. insan həyatı və sağlamlığına zərbə vura biləcək halların qarşısının alınmasında əhəmiyyətli rol oynadı.

İldən-ilə səhiyyəyə ayrılan büdcə vəsaitinin artırılmasının nəticəsi olaraq Azərbaycan səhiyyəsi bu gün dünya səhiyyəsi ilə rəqabət apara biləcək gücə malikdir. Belə ki, müxtəlif orqanlar üzərində əməliyyatların aparılması, orqanların transplantasiyası və s. son illərin nailiyyət və uğurları sırasındadır. Məlum olduğu kimi ölkəmizdə açıq ürək, böyrəkköçürmə əməliyyatlarının keçirilməsi səhiyyəmizin uğurlu inkişafını şərtləndirən amillərdir. Əlbətə ki, bu əməliyyatların ölkə daxilində aparılması, səhiyyəmizin inkişafına söykənir. Xroniki böyrək çatışmazlığı olan xəstələrin müalicəsi məqsədilə hər il respublikanın bölgələrində yeni dializ mərkəzləri isitifadəyə verilir. Ölkəmizdə talassemiyalı və hemofiliyalı xəstələrin müalicəsində müsbət nəticələr əldə edilmişdir. Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyinin təzahürüdür.

***Zümrüd BAYRAMOVA***




# Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas məqamları açıqlandı



**Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının yanvarın 26-da keçirilmiş iclasında Qayıdış Konsepsiyasının layihəsinə baxılıb. Sənəd layihəsi səsə qoyularaq təsdiqlənib. Daha sonra Konsepsiya İcmanın əsas orqanlarının genişləndirilmiş birgə iclasına təqdim olunub.**

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qayıdış Konsepsiyasının əsas məramı indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdir. Konsepsiya Qərbi Azərbaycan İcmasının bu sahədə fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən sənəddir.

Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Sənədin əsas məqamları aşağıdakılardır:

- İndiki Ermənistandan qovulmuş bütün azərbaycanlıların və onların törəmələrinin öz yurdlarına qayıtmaq hüququ var. Bu hüququn ləyaqətli və təhlükəsiz şəkildə reallaşmasına şərait yaradılmalı, insanlar ora qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqları təmin olunmalıdır;
- Qayıdış prosesi müvafiq zəmanətləri və verifikasiya mexanizmləri olan beynəlxalq hüquqi təminat çərçivəsində baş verməlidir;
- Qayıdacaq insanların təhlükəsizliyini təmin etmək üçün qayıdış olacaq ərazilərə müvafiq mandatla beynəlxalq sülh missiyası yeridilməlidir. Həmin missiya İcmanın etibar etdiyi ölkələrin qüvvələrindən ibarət olmalıdır;
- Qayıdış prosesində qovulmadan əvvəlki məskunlaşma coğrafiyası bərpa edilməlidir. Geri qayıdanları pərakəndə səpələmək insan hüquqlarına zidd cəhd kimi rədd ediləcək.
- Ermənistan qayıdacaq azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təminatı üzrə beynəlxalq nəzarət və monitorinq mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlamalıdır;
- Qayıdacaq azərbaycanlıların Azərbaycan ilə xüsusi bağları nəzərə alınaraq, onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə şərait yaradılmalıdır;
- Ermənistan hökuməti qayıdacaq azərbaycanlıların mülkiyyət hüquqlarını bərpa etməli, onların evlərini, icma torpaqlarını qaytarmalıdır;
- Qərbi azərbaycanlılar erməni xalqı ilə barışığa, dinc və yanaşı yaşamağa hazırdır. Ermənistan hökuməti barışığı təşviq etmək üçün səylər göstərməli, dağıdılmış Azərbaycan mədəni irsini bərpa etməli, qorumalı, həyata keçirdiyi yer adları dəyişikliklərini ləğv etməli və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinə son verməlidir;
- İcma Qərbi azərbaycanlıların legitim nümayəndəsi və maraqlı tərəf kimi qayıdış prosesi və sonrakı dövrdə bütün müvafiq proseslərdə iştirak etməlidir.

## "Qərbi Azərbaycan İcmasının fəaliyyətinin formalaşması üçün konsepsiyaya xüsusi müddəalar daxil edilib"



Qərbi Azərbaycan İcması bilir ki, qayıdış çox çətin və ağır olacaq. Ona görə də fəaliyyətinin uzunmüddətli və daimi formalaşması üçün Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına xüsusi müddəalar daxil edilib. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Qərbi Azərbaycan İcması sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu söyləyib.

"Eyni zamanda, biz bilirik ki, təhlükəsizlik məsələsi çox vacibdir. 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulan vətəndaşların Ermənistan hökumətinə və dövlətinə inamı olmadığından qayıdış üçün beynəlxalq zəmanətin olması və real məcburi hüquqi prosedurun tətbiq olunması məsələsi aktualdır ki, bu da konsepsiyada öz əksini tapıb. Bu şərtlər olmadan Qərbi Azərbaycana qayıdış, orada ləyaqətli və təhlükəsiz yaşamaq mümkün deyil. Ona görə də icma cəhd edəcək və çalışacaq ki, Ermənistanla Azərbaycan arasında imzalanması nəzərdə tutulan mümkün sülh müqaviləsinə Qərbi azərbaycanlıların hüquqlarının tanınması məsələsi əlavə edilsin", - deyə H.Babaoğlu qeyd edib.

O bildirib ki, Qərbi Azərbaycan icmasının əsas vəzifələrindən biri də tarixi torpaqlarımıza qayıtdıqdan sonra müxtəlif əyani vəsaitlər əsasında bizə aid olan abidələrimizin dirçəldilməsi və bərpa olunması ilə bağlı fəaliyyətdir. Həmçinin əsas hədəflərdən biri beynəlxalq arenada Qərbi Azərbaycan icmasının səsinin eşidilməsinə nail olmaqdır. Bu istiqamətdə beynəlxalq və regional insan hüquqları təşkilatları ilə sıx əməkdaşlıq etməklə onların məhz Qərbi Azərbaycan İcmasının bu münasibətlərdə hüquqi subyekt kimi tanınmasına nail olmaq lazımdır.

## "Mirzoyanın bu təhdidi Ermənistan üçün intihara çağırışdır"

"Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan özündən əvvəlkilərin təxribatçı fikirlərinin aqibətini nəzərə almadan məsuliyyətsizliklə Avropa Parlamentində Laçın yolunda yeni müharibəyə çağırış kimi bəyanatla çıxış edib. Hələ II Vətən müharibəsindən əvvəl Ermənistanın müdafiə naziri Tonoyan yeni torpaqların işğalı naminə müharibə adlı bəyanat vermişdi və onunla eyni vaxtda baş nazir Paşinyan "Qarabağ Ermənistandır" şəklində təxribatçı fikirlər irəli sürmüşdü. Həmin bu təxribatçı bəyanatların sonunun Ermənistan üçün nə ilə nəticələndiyini hər kəs bilir. Azərbaycan Ermənistan ordusunu və onun dünyadakı strukturlarını darmadağın etdi". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.



Onun sözlərinə görə, Mirzoyanın bu təhdidi faktiki olaraq Ermənistan üçün intihara çağırışdır: "İndiki şəraitdə Ermənistanın müharibəyə girməsinin necə nəticələnəcəyini bütün ağıllı adamlar bilir. Ermənistan dünya miqyasında olan-qalan dəstəyini də itirib, müttəfiqləri artıq onun siyasətindən bezib. Erməni lobbisinin əvvəlki gücü qalmayıb. Çox təəssüf ki, Ermənistanın xarici işlər naziri bunu anlayaraq və ya anlamayaraq belə bir çağırış edib. Ermənistan bu cür bəyanatlar etməklə bölgədə sülhün bərqərar olmasında maraqlı olmadığını nümayiş etdirir".

Ekspert sözlərinə davam edərək bildirib ki, Ermənistan hakimiyyəti indiyə qədər sülh prosesində əldə olunmuş bütün nəticələrin üzərindən xətt çəkməyə çalışır: "Çünki sülh danışıqlarının onlar üçün əlverişli istiqamətdə getmədiyini bilirlər. Beləliklə də, regionu açıq-aşkar müharibəyə sürükləyir. Təbii ki, Mirzoyanın bu çağırışına dəstək verərək heç kim Azərbaycanla müharibəyə başlamayacaq. Belə çağırışların bizim üçün müəyyən qədər önəmi də var. Biz Ermənistanın sülh istəmədiyini bir daha dünyaya nümayiş etdirmək imkanı qazanırıq. Eyni zamanda, Mirzoyanın bu çağırışı Rusiyanı narahat etməlidir. Çünki bu müharibə indiki halda Rusiyanın mənafeyinə uyğun deyil. Əksinə, proseslərin dondurulması Rusiya üçün daha arzuolunan bir ssenaridir. Rusiya da bu bəyanata haqlı cavabı verməlidir. Kimin hansı cavabı verməsindən asılı olmayaraq ordumuzun və siyasətimizin gücü hər cür təxribatın qarşısını almaq imkanındadır".

*Ləman Əlizadə*

# Türkiyə: seçkilər və NATO

## Prezident Ərdoğan Qərblə qarşıdurmada xalqına arxalanır

Türkiyə Milli Təhlükəsizlik Şurası prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə bu il ilk iclasını keçirib, NATO ilə əlaqələr, beynəlxalq böhranlar və terrorla mübarizə məsələləri müzakirə edilib. Əsas məsələlərdən biri də may ayında Türkiyədə keçirilməsi nəzərdə tutulan prezident və parlament seçkiləri ərəfəsində qızğın müzakirələrə və siyasi fəallığın artmasına səbəb olan Finlandiya və İsveçin NATO-ya üzv olmaq üçün müraciətinin təsdiqlənməsi olub. Anti-Qərb əhval-ruhiyyəsinin artması və NATO-dan çıxmaq üçün kampaniyanın başlaması prezident Ərdoğana özünü ölkənin suverenliyinin əsl müdafiəçisi kimi təqdim etmək və hakimiyyətinin üçüncü onilliyinə girmək şansı verir və bu, seçicilərin gözünü bir daha açmağa hesablandığını sübut edir. İqtisadiyyatın gücləndirilməsi xarici siyasətdə "güclü əl" prinsipinin qaçılmaz olduğunu diktə edir. Amma bəzi NATO ölkələri Türkiyəni təsir dairəsində saxlamaq üçün müxtəlif gedişlər edirlər, amma bütün addımlar cənab Ərdoğanın usta gedişləri ilə dəf edilir.

Yeni ildə ilk dəfə çərşənbə günü toplanan Türkiyə Milli Təhlükəsizlik Şurasının işinin bərpası ekstremal şəraitdə baş verir. Bir anda bir neçə regional və beynəlxalq təhlükəsizlik böhranı, İsveç və Finlandiyanın alyansa qoşulması ilə bağlı problemin həll olunmaması səbəbindən NATO ilə münasibətlərin pisləşməsi, eləcə də Avropada anti-türk əhval-ruhiyyəsinin artması prezidentlərin görüşündə gündəmə gəlib. Ankara artıq təhdid və çağırışlarla doyub.

İclas ərəfəsində Türkiyənin "Anadolu" agentliyi Təhlükəsizlik Şurasındakı mənbələrə istinadən gündəliyini ətraflı şəkildə açıqlayıb. Buraya Finlandiya və İsveçdən NATO-ya, Ukraynaya müraciətlər, "Şimali İraq və Suriyadakı əməliyyatlar fonunda terrorizmlə mübarizə, son 12 ildə ilk dəfə Dəməşqlə başlayan dialoq, adalarda qanunsuz olaraq silah yerləşdirən Yunanıstan və bu kimi hərəkətlər daxildir". Bundan əlavə, Egey dənizi və Şərqi Aralıq dənizindəki vəziyyət, o cümlədən Kipr, regional və milli təhlükəsizlik məsələlərinin uzun siyahısına daxil edilib.

İslama və prezident Ərdoğana qarşı kampaniya da daxil olmaqla, artan təhdid və çağırışlara tez cavab tapmağa hazır olduğunu nümayiş etdirmək daxili siyasi vəziyyətə görə Türkiyə hakimiyyəti üçün xüsusi əhəmiyyət kəsb edir. May ayında ölkədə Mustafa Kamal Atatürkün 1923-cü ildə yaratdığı Türkiyə Cümhuriyyətinin yüz illik tarixində ən mühüm seçkilərdən biri olacaq parlament və prezident seçkiləri keçiriləcək. Seçki tsiklinin yekunlarına əsasən, Türkiyə hökumətinin qarşıdakı illər üçün strukturu formalaşacaq və ölkə əsas suallara cavab alacaq: 68 yaşlı prezident Ərdoğan hakimiyyətinin üçüncü onilliyinə qədəm qoyacaqmı, hakim Ədalət və İnkişaf Partiyası mövqelərini qoruyub saxlayacaqmı?

Sorğular göstərir ki, Türkiyə liderinin və onun tərəfdarlarının parlamentdəki qələbəsi iqtisadiyyatda və sosial sahədəki çətin vəziyyəti nəzərə alsaq, mütləq olaraq təminatlı deyil. "Reuters" şərhlərində yazır: "İllərdir artan inflyasiyadan və valyutanın çökməsindən əziyyət çəkən türk seçiciləri tezliklə prezident Ərdoğanın sıx idarə olunan iqtisadiyyat konsepsiyasını davam etdirməyə davam etməli, yoxsa liberal ideologiyaya ağrılı bir şəkildə qayıtmaq üçün ondan imtina etməli olacaqlar". Bəzi zəif tərəfləri sadalayan agentlik "türklərin yaşayış böhranından tükəndiyini" xatırladır, eyni zamanda, "son beş ildə bir çox beynəlxalq sərmayəçi Türkiyəni daimi bazar tələtümləri və Ankaranın gözlənilməz iqtisadi siyasətləri səbəbindən tərk edib", deyə qeydlər edir. Əslində bu yanaşma Qərbin anti-Türkiyə təbliğatına hesablanıb, desək yanılmarıq.






### Ankaradan Stokholma hücum

Sosial-iqtisadi siyasətin uğursuzluqlarının may ayında keçiriləcək prezident seçkilərində namizədini irəli sürməyi planlaşdıran altı müxalifət partiyasının koalisiyası üçün güclü arqumentlərə çevriləcəyi bir şəraitdə Prezidentin düşərgəsi öz əks arqumentlərini axtarır. Seçicilər Türkiyənin və Ərdoğanın komandasının "güclü əlinə" alternativin olmadığını bildirir.

Prezident Ərdoğanın seçki kampaniyasının və Ədalət və İnkişaf Partiyasının artıq Xalq Alyansı qurmuş Milliyyətçi Hərəkat Partiyası ilə koalisiyasının əsas kozırları siyasi suverenliyi müdafiə etmək bacarığının nümayişi olmalıdır. Bu tezislər də təxminən belədir: NATO və Qərb, terrorla mübarizə aparın və İslam dəyərlərini qoruyun.

2023-cü il seçki kampaniyasını 100 illik yubileyində Türkiyə Cümhuriyyəti üçün ekzistensial seçimə çevirməklə Xalqlar Alyansından seçkiyə gedən Rəcəb Tayyib Ərdoğan gələcək rəqibinə şans buraxmayacağına ümid edir. "Xalq Alyansı"nın elektoratını səfərbər edən vasitələrdən biri də ideoloji cəhətdən hakim koalisiyaya yaxın olan millətçi "Ana Vətən" partiyasının təşəbbüsü ilə yanvarın 19-da ölkədə başlanmış "NATO-dan çıxaq" ümumxalq kampaniyasıdır.

Kampaniya çərçivəsində yaxın aylarda Türkiyə şəhərlərinin meydanlarında NATO bazalarına qarşı mitinq və etiraz aksiyalarının keçirilməsi, alyansdan çıxmaq üçün petisiyaların imzalanması üçün masaların qurulması planlaşdırılır. "Hadisələr bizi belə addımlar atmağa məcbur edir. NATO öz təxribatları ilə bizi buna məcbur edir. Bizi qonşumuz Yunanıstana qarşı qoymağa çalışırlar. Bizi Yaxın Şərqin burulğanına sürükləməyə çalışırlar. Nəhayət, İsveç və Hollandiyada Qurana zidd hərəkətləri görürsünüz" deyən Ana Vətən Partiyasının sədr müavini Ethem Sancak çərşənbə günü "Türkiyə 5-6 aya NATO-dan çıxacaq" (əvvəllər bunu partiyanın lideri Doğu Perinçek demişdi) sözü verib. "Güclü NATO Türkiyə üçün güclü təhlükə deməkdir".

Ethem Sancak Alyansdan çıxmağın zəruriliyini izah edərək, son sorğuların nəticələrinə istinad edərək, Türkiyə vətəndaşlarının ən azı 80%-nin ABŞ-ı Cümhuriyyətə qarşı "ən düşmən və dağıdıcı siyasət yürüdən" ölkə hesab etdiyini bildirib. "Anadolu" agentliyinin apardığı digər sosioloji sorğu göstərib ki, Türkiyə vətəndaşlarının 90%-dən çoxu Ankaranın İsveçin NATO-ya üzvlüyünə dəstəyinə qarşıdır. "Türkiyə İsveçin NATO-ya üzvlüyünü dəstəkləməlidirmi?" sualını cavablandıran agentliyin abunəçilərinin 92,5%-i Twitter-də mənfi, yalnız 7,5%-i müsbət cavab verib (səsvermədə 50 mindən çox insan iştirak edib).

Əvvəllər millətçi türk siyasətçilərinin ağzından eşidilən NATO əleyhinə ritorika heç vaxt siyasi əsas olmayıb. Lakin bu gün getdikcə artan siyasətçilər və ekspertlər belə qənaətə gəlirlər ki, ölkənin cənub cinahı kimi alyansdan çox şey aldığı vaxtlar keçmişdə qalıb və bu gün NATO Türkiyəyə bonus verməkdən daha çox problemlər yaradır. Onların fikrincə, Türkiyə yeni vəziyyətdə alyansın fəaliyyətini dayandıran kollektiv mexanizmlərinə deyil, təhlükəsizlik sahəsində strateji muxtariyyətə, o cümlədən özünün hərbi-sənaye kompleksinin inkişafına arxalanmalı olacaq.

Milliyyətçi Hərəkat Partiyasının lideri Dövlət Baxçalının bəyanatı da NATO ilə gələcək münasibətlərin 2023-cü ildəki seçki yarışının aktual mövzusuna çevriləcəyini təsdiqləyib. "Biz NATO ilə doğulmamışıq və onsuz da ölməyəcəyik, Allaha şükür", - Xalqlar Alyansının bir hissəsi olan siyasi qüvvənin rəhbəri deyib.

Bununla belə, müzakirəni davam etdirən Prezidentin Ədalət və İnkişaf Partiyasının mətbuat katibi Ömər Çelik çərşənbə günü Ankaranın alyansdan çıxması ehtimalını istisna edərək, anti-NATO əhval-ruhiyyəsində çox uzağa getməməyə çağırıb. "Hər seçkidə belə hallarla qarşılaşırıq. Türkiyənin NATO-dan çıxmasının vacibliyindən danışanların sözləri ağlabatan deyil" deyən cənab Çelik Türkiyənin alyansın qurucu ölkələrindən biri olduğunu xatırladıb.

### Alman jurnalı Ərdoğanı hədəf aldı

The Wall Street Journal-dan başlayaraq The Economist, Bloomberg və The Washington Post ilə davam edən qalmaqallar silsiləsi Almaniyaya qədər uzanıb. "Stern" jurnalı "arsonist Erdoğan" kimi biabırçı üz qabığı ilə oxucularının qarşısına çıxdı. Türkiyədə mayın 14-də keçirilməsi planlaşdırılan seçkilərə dörd aydan da az vaxt qalıb və Qərb ölkələrində nəşr olunan jurnal və qəzetlər artıq qalmaqallı başlıqlarla oxucularının qarşısına çıxmağa başlayıb. Amerikanın "The Wall Street Journal", Britaniyanın "The Economist", "Bloomberg" və "Washington Post" qəzetlərindəki məqalələrini ən son olaraq Almaniyanın "Stern" jurnalı daban-dabana izləyir.

Ardı Səh. 6

ANALİTİK



# Türkiyə: seçkilər və NATO

## Prezident Ərdoğan Qərblə qarşıdurmada xalqına arxalanır




Əvvəli Səh. 5



Amerikanın "The Wall Street Journal" qəzetində dərc olunan "NATO-nun Ərdoğana seçki mesajı" başlıqlı məqalənin altında tanış bir adın imzası var: Con Bolton. Donald Tramp dövrünün milli təhlükəsizlik müşaviri Bolton yanvarın 16-da yazdığı məqalədə prezident Rəcəb Tayyib Ərdoğanın seçkilərdə qalib gələcəyi təqdirdə Türkiyənin NATO-dan çıxarılmasını təklif edib. Böyük səs-küyə səbəb olan məqalənin ardınca "The Economist" jurnalının üz qabığı dərc olunub.

"Economist" yanvarın 19-da üz qabığında prezident Ərdoğanı "topa tutub". "Türkiyədə diktaturaya yaxınlaşmaq" kimi qalmaqallı başlıqdan istifadə edən jurnala Ankara çox sərt reaksiya verib. Prezident Ərdoğan "İngilis jurnalı Türkiyənin taleyini təyin edirmi? Bunu mənim millətim təyin edir. Millətim nə deyirsə, Türkiyədə də o olacaq. İngilis jurnalı Türkiyənin taleyini təyin edə bilməz" deyə açıqlama verib.

Yanvarın 21-də İsveçin paytaxtı Stokholmda Qurani-Kərimin yandırılması və Türkiyənin bu qalmaqala açıq reaksiyası dünya mediasının manşetlərində yer alıb. Ərdoğan bildirib ki, İsveç NATO-ya üzvlük üçün Ankaradan dəstək gözləməməlidir. Bu bəyanatdan bir neçə saat sonra Amerikanın Bloomberg telekanalında "NATO Ərdoğanın genişlənməni gecikdirməsinə imkan verməməlidir" başlıqlı məqalə dərc olunub. Bloomberg-dəki qalmaqallı məqalə Amerikanın Washington Post qəzetində də dərc olunub.

İsveç və Finlandiyanın üzvlüyündən əvvəl Türkiyəni "inadkar" kimi xarakterizə edən qalmaqallı məqalədə Ankaranın da "yanıltıcı" tələblər irəli sürdüyü iddia edilirdi.

Prezident Ərdoğanın seçkilər öncəsi geri çəkilmək üçün çox az səbəbi olduğunu iddia edən Bloomberg, Türkiyənin barışmaz mövqeyinin təkcə Skandinaviya ölkələrinin ittifaq üzvlüyünü deyil, həm də Avropanın təhlükəsizliyini təhlükə altına atdığını iddia edib. NATO-ya üzv olmaq üçün neytrallıqlarını bir kənara qoyan İsveç və Finlandiyanın onsuz da çox həssas vəziyyətdə olduğunu bildirən Bloomberg, ABŞ və Avropanın çıxılmaz vəziyyəti həll etməli olduğunu yazıb. ABŞ lideri Co Baydenin işə qarışmasını və NATO üzvlərinin prezident Ərdoğana təzyiq göstərməsini istəyən Amerika mediası, Ankaranın müqavimət göstərəcəyi təqdirdə ABŞ Konqresinin F-16 satışını dayandırmaqla cavab verməli olduğunu müdafiə edib.

Daha da irəli gedərək, Bloomberg Türkiyənin NATO təlimlərində iştirakının azaldılmasını və Ərdoğanın iyulda keçiriləcək NATO-nun tarixi sammitində iştirakını istisna etməyi tələb edib. Media orqanı Türkiyənin hərbi ittifaqdan görünməmiş şəkildə çıxarılmasının da müzakirə edilməli olduğunu müdafiə edib. Bloomberg məqaləsi "Mesaj aydın olmalıdır: NATO-nun təhlükəsizliyinə bilərəkdən zərər vuran üzv heç də müttəfiq deyil" cümləsi ilə yekunlaşıb.

Bu dəfə Amerikadakı nəşrlərin əks-sədası sönməzdən əvvəl Almaniyanın "Stern" jurnalı səhnəyə çıxıb. "Arsonist Erdoğan" kimi qalmaqallı üz qabığı ilə çıxan "Stern" jurnalında "Türkiyə prezidenti hakimiyyətdə qalmaq üçün təhlükəli münaqişələri qızışdırır, Almaniya da bu münaqişələrdə iştirak edir" ifadəsi yer alıb. "Prinsipsiz" kimi qalmaqallı ifadələrin işlədildiyi yazıda prezident Ərdoğan bu cümlələrlə hədəfə alınıb: "O, Qərblə və Putinlə danışıqlar aparır, NATO-ya məhəl qoymur və Suriyada müharibə aparır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan böyük beynəlxalq səhnədə oynayır. Amma o, öz ölkəsində hakimiyyəti üçün mübarizə aparmalıdır".

Alman jurnalı onu da qeyd edib ki, Ərdoğan Ukraynadan Suriyaya qədər ipləri saxlayır və öz təsirindən istifadə edir. "Stern" jurnalı AK Partiya sözçüsü Ömər Çelikdən sərt reaksiya alıb. Çelik "Prezidentimizin sülhməramlı xarici siyasəti onları daha çox narahat etməyə davam edəcək. Millətimizin yüksək siyasi şüurla verəcəyi qərarlar həm də xarici qəyyumluq cəhdlərinə tarixin ən böyük dərsini verəcək", deyə qeyd edib. Seçkilərə isə 4 aydan da az vaxt qalır

**V.VƏLİYEV**

# Zorakılıq fonunda

# YALANÇI DEMOKRATİYA OYUNU




Fransa ermənilərlə flört etməkdə kifayət qədər zəngin təcrübəyə malikdir və ən absurd məqam da odur ki, işğalçını dəstəkləyən bir ölkə özünü demokratik, sivil, ali dəyərlərə hörmət edən, bu dəyərləri guya qoruyan bir dövlət kimi də qələmə verir. Fransanın hər dəfə Azərbaycan əleyhinə ortaya qoyduğu mövqe belə təsdiq edir ki, bu ölkənin qətiyyən haqqa, ədalətə, beynəlxalq hüquqa, insan haqlarına dəyər vermək kimi bir niyyəti olmayıb və indi də yoxdur. Söhbət bu ölkənin kağız üzərində qalan və bundan sonra da qalacaq qərarlarından getmir, söhbət Fransa adlı bir Avropa ölkəsinin ikiüzlülüyündən, ədalətsizliyindən, haqqa, insan haqlarına, beynəlxalq hüquqa məhəl qoymamasından gedir, əks halda işğalçını deyil, işğala məruz qalanı dəstəkləyər, haqqın tərəfində olar, heç olmasa öz vətəndaşlarının belə hüquqlarını pozmazdı. Fransa əgər insan haqlarına qiymət qoysaydı, birinci növbədə öz vətəndaşlarının haqlarını qoruyar, onların haqlarını tapdalamazdı, biz isə bunun əksini müşahidə etməkdəyik. Deməli, bu ölkə, Avropanın düz ortasında olan Fransa sadəcə olaraq yalançı demokratiya oyunu oynayır.

Bilirik ki, Fransanın müstəmləkəçilik və imperializm siyasəti, Əlcəzairdə, Ruandada, Malidə, Kambocada və Cənubi Vyetnamda törətdiyi müharibə cinayətləri bütün dünyaya bəllidir. Fəqət bu cinayətlərin cavabsız qalması səbəbindən Fransa həddini aşmaqda davam edir ki, bu da aydın məsələdir. Bu ölkə təkcə Əlcəzairdə törətdiyi milyonlarla qətl hadisəsinə görə ittiham olunsaydı, nəinki yadına Azərbaycan əleyhinə sərsəm, həqiqətə uyğun olmayan, ədalətsiz, beynəlxalq hüquqa zidd qərarlar vermək düşməzdi, eləcə də öz daxilində belə insan haqlarına dəyər verərdi və vətəndaşlarının hüquqlarını pozmaz, demokratiyaya zidd hərəkət etməzdi. Elə bu fonda onun demokratiya dərsi keçmək kimi bir imkanı da olmazdı. Dünya birliyi nəzərə almalıdır ki, bu ölkənin etdiklərinə reaksiya verilməməsi, hətta həmin ölkənin ittiham belə edilməməsi indi onun beynəlxalq hüququn norma və prinsiplərini tapdalaması üçün əməlli-başlı şərait yaradıb.

Ümumiyyətlə, Fransanın tarixən yürütdüyü müstəmləkəçilik və imperializm siyasəti heç kim üçün sirr deyil və bu tarix, bu olaylar həmin ölkə üçün silinməz qara ləkədir. Yəni, Fransa özünü demokratik, sivil, yaxud ali dəyərlərə hörmət edən, insan haqlarını qoruyan bir ölkə kimi təqdim etməzdən öncə bu ləkəni təmizləməlidir. Ən azından təmizləməyə çalışmalıdır. Bunu isə müşahidə edən, duyan, hiss edən yoxdur. Əksinə, sanki Fransa belə də etməli idi və bu olaylarda həmin ölkə haqlı imiş kimi özünü göstərir. Belə demokratiya carçısını, belə insan haqları müdafiəçisini kim ciddiyə alar? Fransanın bu boyda soyqırımlara imza atmasından sonra onun hansısa hüquqa istinad etməsinə, hansı hüquqları qorumasına, hansısa insan haqları uğrunda mübarizə aparmasına, demokratiya dərsi keçməsinə hansı cəmiyyət inanar? Bax bu sualı həmin o Avropa dövləti olan Fransa özü özünə versə daha yaxşı olar. Heç olmasa hansısa ali dəyərlərdən dəm vurmağa haqqı belə çatmadığının fərqində olar, utanmasa belə.

Utanmasa dedikdə bir zərb məsəli xatırlamaq yerinə düşür. "Utanmasan toyda oynamağa nə var", məsələni xatırlayanda başa düşürsən ki, bu ölkə tarixən törətdiyi bu qədər qanunsuzluğun, insanlığa sığmayan əməllərin fonunda demokratiyadan, insan haqlarından, haqdan, hüquqdan danışırsa, deməli, utanmaq kimi bir niyyəti yoxdur. Əks halda, öz tarixinə nəzər salıb heç olmasa bu zamanda, iyirmi birinci əsrdə yenə də qanunsuzluqlara əl atıb insanların haqlarını tapdalamaz, demokratik dəyərlərə, beynəlxalq hüquqa saymazlıq etməzdi. Ən azından öz vətəndaşlarına qarşı belə bunu etməkdən çəkinərdi. Amma Fransanın çəkinmək kimi bir niyyətinin olmadığını görəndə anlaşılır ki, bu ölkə nəinki doğru nəticə çıxarıb düz yola gəlmək fikrində deyil, hətta haqqında qeyd olunan dəyərləri ələ salmağı belə adi hal hesab edir. Göstərdiyi də sadəcə demokratiya oyunudur, özü də yalançısından.

"Özünü demokratik ölkə adlandıran Fransada polisin dinc nümayişçilərə qarşı dəyənəkdən istifadə etməsi qəbuledilməzdir.", deyən Fransanın "Musulmans en France" xəbər portalının təsisçisi, jurnalist Jan-Mişel Brun bu ölkənin hələ də etirazçılara, haqq səsini ucaldanlara qarşı zorakılıq etdiyini qeyd edir və buna etirazını bildirir. O, hətta qeyd edir ki, Fransa hökuməti əhalinin çoxsaylı etirazlarını artıq nəzərə belə almayacağını bir daha bəyan da edib. Təsadüfi deyil ki, Jan-Mişel Brun polis zorakılığını davam edən problem adlandırıb və deməli, o bu problemin əvvəl də olduğunu və hələ də davam etdiyini açıq şəkildə söyləyib. Halbuki, insan haqlarının qorunduğundan dəm vuran ölkə üçün bu qəbul edilən deyil, eyni ilə xəbər portalının təsisçisi və jurnalisti dediyi kimi, amma biz bunun elə Fransada qəbul edildiyinin də, "dəyənək üsulunun" tətbiq edildiyinin də şahidiyik. Özü də birincə dəfə yox, dəfələrlə. Deməli, bu ölkədə zorakılıq "ənənəsi" davam edir və bu halda demokratiyanı oyun-oyuncaq kimi gözdən pərdə asmaq üçün ortaya atdıqları zərrə qədər şübhə doğurmur.

Ötən həftə Fransada polis dinc aksiya keçirən vətəndaşlara qarşı yenidən dəyənəklərdən istifadə etdi. Zərərçəkənlərdən biri artıq məhkəməyə müraciət də edib. Xatırladığımız kimi, 2020-ci ildəki etirazlar zamanı da Fransa polisi zorakılığa əl atmışdı və daha sonra ölkə prezidenti Emmanuel Makron və daxili işlər naziri polisin şiddət tətbiq etdiyi video görüntülərin sosial mediada sürətlə yayıldığını görərkən vəziyyətə reaksiya verməli oldular. Hətta onlar belə halların bir də təkrarlanmaması üçün müvafiq tədbirlərin görüləcəyinə söz də verdilər. Ancaq təəssüf ki, zorakılıq Fransada, guya insan haqlarınının müdafiəçisi qiyafəsində olan ölkədə hələ də baş verməkdədir. Amma özünü demokratik adlandıran ölkədə polisin dəyənəkdən istifadə etməsi çox acınacaqlıdır və yenə də orada verilən vədə əməl edilmədiyi özünü göstərməkdədir. Bu, ikiüzlülük fonunda hansı demokratiya, hansı insan haqları müzakirə mövzusu ola bilər axı?

Bu il, 19 yanvar tarixində Paris, Marsel və Lionda pensiya sistemində islahatlara qarşı keçirilən etiraz aksiyalarında 1,5 milyondan çox insan iştirak edib. Bu, çox ciddi bir rəqəmdir və Paris bu ciddiyyəti nəzərə almalı idi. Amma belə bir niyyəti hiss edən də olmadı, belə bir fikir də ortaya çıxmadı. Etirazlarda nəqliyyat, təhsil və enerji sektorunun işçiləri xüsusi fəallıq nümayiş etdirdilər. Avropanın düz ortasında bu nümayişlərə məhəl də qoyulmadı, üstəlik, bundan əvvəl verdikləri vədlərin fonunda zorakılıq da tətbiq etdilər. Makron da öz kefində, öz planlarının, öz kürsüsünün hayındadır və ölkə vətəndaşının əzilməsi, onlara zor qətbiq edilməsi, polisin, güc strukturlarının zorakılığı onun gözündən yayınmalı oldu. Bütün olayları guya görmədi. Nə səbəbə? Niyə? Ona görə ki, sərf etmir bunu görmək. Çünki çoxsaylı etirazlara baxmayaraq, Makron seçki kampaniyası zamanı təqdim edəcəyi proqram üzərində başını sındırır.

Bir ölkənin prezidentinin bütün gücü ilə seçki proqramını həyata keçirmək cəhdləri onun antidemokratik siyasətindən xəbər verir. Ələlxüsus, ölkədə problemlər fonunda etirazların qızışdığı, tüğyan etdiyi bir şəraitdə həmin ölkə rəhbəri ancaq öz hakimiyyətini qorumaq üçün, öz naminə çalışırsa, burada, bu ölkədə demokratiyadan danışmağa dəyməz. Əgər bu günkü gündə Emmanuel Makron öz hayındadırsa, kütlənin etirazlarını, eləcə də bu etirazlar zamanı onlara qarşı rəhbərlik etdiyi dövlətin güc strukturlarının tətbiq etdiyi zorakılığı nəzərə almırsa, seçkidə qələbə çaldıqdan sonra nəzərə alarmı? Qətiyyən. Makron pensiya islahatları aparmaq niyyətində olduğu barədə nədən dəm vurur bilmirik, amma bu adamın, daha doğrusu, bu gün başı əzilən vətəndaşlarının halına acımayan bu hiyləgərin seçkidən sonra onlar haqqında, onların vəziyyəti haqqında nə isə düşünəcəyi belə ağla sığmır və inandırıcı da deyil. Bunu fransızlar heç ağıllarının ucundan da keçirməsinlər və ölkələrində cərəyan edən hadisələrə, xüsusən polisin onlara qarşı tətbiq etdiyi zorakılığa baxıb nəticə çıxarsınlar, düşünməsinlər ki, demokratik bir ölkədə yaşayırlar, əsla. Göstərilən uzaq başı yalançı demokratiyadır, özü də şiddətin və zorakılığın fonunda.

Nə vaxtsa Azərbaycanda hansısa bir xırda küçə nümayişlərinə, iştirakçılarının sayı 1000-1500 nəfərə çatmayan piket səviyyəli etirazçı toplaşmasına don geyindirmək istəyən bir Avropa ölkəsində milyon yarımdan çox insan etiraz aksiyası keçirir və buna da həmin ölkənin prezidenti məhəl qoymur, öz plan və proqramı, öz namı üçün çalışır. Qoca Qitənin düz ortasında nümayişçilərə, etirazçılara zor tətbiq olunur, onlara qarşı ölkənin güc strukturları zorakılır edirlər, amma Paris buna cavab belə vermək niyyətində görünmür. O Paris ki, Azərbaycanda və yaxud hansısa ölkədə buna bənzər bir hal görmədən belə bar-bar bağırmaqda özü kimi ədalətsizlərlə yarışa girir. Niyə bu ölkə bir açıqlama belə vermək istəmir, yaxud vermir? Niyə dünya birliyi bu ölkədən hesab sormur? Hanı demokratik təsisatlar və onlar Fransadakı antidemokratiyanı görməməzlikdən niyə gəlirlər? Elə bilirlər ki, bunun ardı daha pis olmayacaq? Olacaq. Daha da pis olacaq. Eyni ilə Fransanın müstəmləkəçilik və imperializm siyasətinə, Əlcəzairdə, Ruandada, Malidə, Kambocada və Cənubi Vyetnamda törətdiyi müharibə cinayətlərinə dünya birliyinin cavab verməməsi, cəzasız qoymasının ardınca həmin ölkənin daha da azğınlaşdığı kimi, insan haqlarının müdafiəsinin vəziyyətinin daha da pisləşdiyi kimi, daha da pis olacaq. Bir qədər əvvəl nümayişçilərə rezin güllələr atılarkən, onları atların döşünə qatıb əzərkən, itlərin hücumuna məruz qoyarkən Fransaya cəza tətbiri, heç olmasa xəbərdarlıq tətbiq olunsaydı, indi bu ölkənin polisi belə bir zorakılığa əl atmazdı.

Bir sözlə, dünya birliyi əvvəla Fransaya həmin zorakılıqlarına görə hansısa cəza tədbiri, sanksiya tətbiq etməlidir, digər tərəfdən də öz həddini göstərməlidir. Göstərməlidir ki, həddini aşıb həm bunu bir də təkrarlamasın, həm də Azərbaycanın timsalında öz torpaqlarını 30 illik işğaldan azad edən, öz haqlarını, hüquqlarını, özünə aid olanları müdafiə edən ölkələrə qarşı ədalətsizlik, haqsızlıq edib, həmin ölkələrə qarşı həyazıslıq nümayiş etdirməsin. Zorakılıq fonunda Fransanın oynadığı yalançı demokratiya oyununa dünya birliyi tərəfindən ən azından son qoyulmalıdır və bu Avropa ölkəsinə demokratiyanın bütün ölkələr üçün eyni dəyər olduğu xatırladılmalıdır.

***İnam Hacıyev***

# Heydər Əliyev-100



# Ulu Öndər Heydər Əliyev və Azərbaycan dilinin inkişafı

Bugün adı Azərbaycanın özü qədər əbədi olan müstəqil dövlətimizin qurucusu Heydər Əliyevin mayın 10-da 100-cü ildönümü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ulu öndərin xalq qarşısında misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Xalqımız ulu öndərimizin 100 ili daha möhtəşəm və böyük təntənə ilə qeyd edir. Ulu Öndərin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda mətin addımlarla irəliləyən, demokratik təsisatların təşəkkül tapdığı müasir ölkədir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilib, müstəqil Azərbaycanın davamlı inkişafı təmin edilib. Məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamış və onu dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirmişdir. Ulu öndərimizin müəyyənləşdirdiyi xarici siyasət nəticəsində ölkəmiz diplomatik müstəvidə Ermənistanı küncə sıxışdırdı və beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü tanınırdı. 44 günlük Vətən müharibəsi nəticəsində qazanılan Qələbənin əsasında məhz ulu öndərimizin əsasını qoyduğu uzaqgörən siyasət dayanır.

Bütün bunlar isə, ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə millət atası Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi vəsiyyətini gerçəkləşdirdi. Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın çağdaş tarixinə möhtəşəm zəfər salnaməsini yazdı. Azərbaycan misilsiz Qələbə qazandı. Bu qələbə müstəqil dövlətimizin gücünü, ölkəmizin qüdrətini, xalqımızın döyüş ruhunu, qələbə əzmini dünyaya bir daha təqdim etdi. Və ən əsas odur ki, bütün dünya Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Dünya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi, diplomatik hazırlığına, bacarıqlı dövlət rəhbəri, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə olduğuna bir daha əmin oldu, xalqımızın vətənpərvərliyini, milli birliyini gördü. Beynəlxalq aləm ordumuzun rəşadətinə, əsgərlərimizin igidliyinə şahidlik etdi. Biz də özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidləri olduq. Gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidlərinə çevrildik. Eyni zamanda, haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Milli tariximizi nə qədər oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki tam deyildi. Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti, Müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda, ümummilli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Ölkə başçısının uğurlu rəhbərliyi, hərbi sahədə yeniliklərin tətbiq edilməsi, hərbi texniki bazanın möhkəmləndirilməsi tarixi zəfərin, tarixi Qələbənin qazanılmasında əsas amil oldu.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANI İNKİŞAF VƏ YÜKSƏLİŞ YOLUNA UCALDIB

Ölkəmizə 34 ildən çox rəhbərlik etmiş Azərbaycan Ulu Öndəri Heydər Əliyev nəinki ictimai, siyasi, sosial, eləcə də iqtisadi sahədə kifayət qədər həlledici addımlar atmışdır. Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında böyük və müstəsna rolu olan əvəzsiz şəxsiyyətdir. Çünki müstəqillik əldə edildikdən sonra fəaliyyət göstərən naşı hakimiyyətlər Azərbaycanı demək olar ki, xarici qüvvələrin ixtiyarına buraxmışdılar. Bu isə ölkəmizin dünya xəritəsindən silinməsi təhlükəsini belə ortaya qoymuşdu. Azərbaycan xalqını və ölkəni isə belə ağır vəziyyətdən yalnız Heydər Əliyev fenomeni çıxarardı və 1993-cü il 15 iyunda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı xilasın ilkin mərhələsi kimi qiymətləndirilməyə başlanıldı. Əbəs yerə deyil ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən əsası isə bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı. Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi, 1996-cı ildən ümumi daxili məhsul istehsalı ilbəil artmağa başladı, respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu. Hazırda həmin tarixi dövrü təhlil etdikdə onu sabitləşmə dövrü kimi səciyyələndirmək olar. Məhz həmin illərdə geriləmənin qarşısı alındı və 1996-cı ildən etibarən dirçəliş dövrü başladı. Bir sıra istehsal sahələrində geriləmənin sürəti azaldılmış, bəzi hallarda isə bu meyl tamamilə dayandırılmış, hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru da inkişaf etdirilmişdir. Sənayenin inkişafı ilə yanaşı Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdır. Ölkəmizin iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

Hər bir xalqın varlığını təsdiq edən ana dili ümummilli liderimiz Heydər Əliyevin fəaliyytində başlıca amil oldu. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Lakin Azərbaycan dilinin yaxın keçmişdə ciddi sınaqlarla üzləşdiyini də unutmaq olmaz. Belə ki, çar Rusiyasının ruslaşdırma siyasətindən sonra 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə dilimizin inkişafına böyük önəm verildi. Daha sonra Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu illərdə isə, dilimizə qarşı hücumların yeni dalğası başlandı. "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi.

Oxşar vəziyyət özünü radio, televiziya və mətbuatda da göstərirdi. Ölkədə elə bir psixoloji mühit yaradılmışdı ki, hətta bəzən sıravi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu. Lakin Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu.

1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Bunlarla kifayətlənməyən ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı Sovet respublikalarından biri idi. Bir sözlə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı uzaqgörən addımlar atan ümummilli liderin "Millətin milliliyini saxlayan onun dilidir" ifadəsi dərin məna daşıyır. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətə və xalqa yenidən rəhbərlik edən Ümummilli lider ana dili məsələsinə yeni səviyyədə - müstəqil dövlət quruculuğunun tələb etdiyi səviyyədə yanaşmağın təcrübəsini verdi. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi. Həmin müzakirələr sübut etdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin qeyd-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədir. Hər şeydən əvvəl, ona görə ki, iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi - Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir; Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək "xırda millətçilik" hisslərini qızışdırırlar; "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla işlənir, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir. 2001-ci ildə ümmilli liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz uu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı. 30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun, ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində isə bu qanun xeyli dərəcədə təkmilləşdirilib.





## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN QƏRARI İLƏ 1 AVQUST TARİXİ HƏR İL AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜ KİMİ QEYD OLUNUR

Yeri gəlmişkən, ümummilli lider Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı Sərəncama əsasən avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu, Azərbaycan dili tarixində əlamətdar, önəmli hadisədir. Bundan əlavə, qəbul edilən digər Fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Ulu öndər müxtəlif ölkələrdəki diaspor nümayəndələrimizlə görüşlərində dəfələrlə vurğulayıb ki, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, milli adət-ənənələrini unutmamalıdır. "Nə yaxşı ki, Azərbaycan dili bütün tələblərə cavab verir. Daha doğrusu, onun böyük potensialı imkan verib ki, o, artıq dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur", - ifadəsi də böyük öndərimizə məxsusdur.

## ULU ÖNDƏRİMİZİN DİL SİYASƏTİ UĞURLA DAVAM ETDİRİLİR

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Latın qrafikasında kütləvi nəşrlərin meydana çıxması bunun parlaq göstəricisidir. Ümumiyyətlə, Azərbaycan xalqının Ümummilli liderinin siyasəti Azərbaycanda ana dilinin - ümumxalq dilinin tərəqqisi üçün elə bir tarixi şərait yaratdı ki, biz həmin siyasətin uzun illər uğurla davam edəcəyinə tam əminik. Təqdirəlayiq haldır ki, ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə baş tutdu. Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı, həm də, əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" Sərəncam oldu. Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək deyib: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Ölkə başçısı, həmçinin, 2012-ci il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir".

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

**RƏFİQƏ KAMALQIZI**

# Muzeyləri gəzmək bizə nə verir?

**Səyahətlər zamanı əsas əyləncələrdən biri muzeyə getməkdir. Muzeyləri ziyarət edib, onları kəşf etmək yaddaşımızda dərin iz buraxır. İngiltərədə aparılan son araşdırmalar göstərir ki, insanlar maddi alış-verişdən çox yeni emosional təcrübələr üçün pul ödədikdə daha xoşbəxt olurlar.**

Muzeyə getmək insanlara yeni təcrübə və digər mənəvi dəyərlər qazandıracaq. Muzeyə getmək həm də insanın həyatında əlamətdar məqama çevrilə və ictimai münasibətlərin yaxşılaşmasına töhfə verir. Bu gələcəkdə bizə müsbət təəssüratlar bəxş edəcək və özümüzü tanıma yoluna



qədəm qoymağa imkan verəcək.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Heç şübhəsiz ki, muzeylərin əsas rolu insanları maarifləndirməkdir. Muzeyə gedəndə onun divarları arasında yatan tarixin bir parçasına çevrilirsən. Oranı ziyarət edən təkcə rəsmlərə baxmır, həm də bəşəriyyət tarixini öyrənir. Hətta muzey binasının özü də bir o qədər maarifləndirici və ruhlandırıcı tarixi eksponatdır.

İndi cəmiyyət muzeylərə getməyə əvvəlki qədər dəyər vermir. Kimi muzeylərdə darıxır, kimisi qədim sənət əsərlərinə maraq göstərmir, kimisə zorla ora getməyə məcbur olur. Burada birinci məqam, mədəni təhsildir. İkinci məqam isə rəsm əsərlərinin tarixini öyrənməklə yanaşı, incəsənətin inkişaf tarixini də öyrənməkdir.

Əgər tarixi öyrənməyi sevirsinizsə, o zaman muzeyləri ziyarət etməkdən mütləq həzz alacaqsınız, çünki orada sənətin necə inkişaf etdiyini, zaman-zaman necə deqradasiyaya uğradığını və yenidən zirvələrə çatdığını görə bilərsiniz.

İstənilən rəssam, yeni başlayan və ya peşəkar, muzeyə gələrək, öz rəsmlərini ustaların ən yaxşı şah əsərləri ilə müqayisə edə bilir.

İndi bir çox eksponatları İnternetdə görmək olur. Bəzi insanlar hesab edirlər ki, internet incəsənəti demokratikləşdirib və onu dəyərdən salıb. Hər bir texniki inqilab sənəti dəyişir, buna görə də hər hansı bir şəkli və ya heykəli canlı kimi çəkməyə imkan verən fotoşəkillərin, kameraların və ya reallığın sərhədlərini itələyərək tamaşaçıların özlərini dünyasına qərq etməyə imkan verən kinonun meydana çıxması ilə baş verib.





Son illər muzeylərin problemlərinin həlli istiqamətində dövlət səviyyəsində müəyyən addımlar atılsa da, onların tam aradan qaldırılması üçün hələ çox işlər görülməlidir. Ölkəmizdə muzey işi əsasən "Muzeylər haqqında" qanun və "Azərbaycan Respublikasının dövlət muzeylərində saxlanan muzey əşyalarının uçotu və saxlanması üzrə Təlimatlar"la tənzimlənir. Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyət siyasəti şöbəsinin muzey işi sektorundan qəzetimizə verilən məlumata görə, hazırda Azərbaycanda 190-dan çox muzey fəaliyyət göstərir. Onlardan 78-i tarix və tarix-diyarşünaslıq muzeyi, 89-u elm, siyasət, mədəniyyət və incəsənət xadimlərinin ev muzeyi, 21-i incəsənət və ədəbiyyat muzeyi, 5-i hərbi-vətənpərvərlik və döyüş şöhrəti muzeyləridir.

Təəssüf ki, bizdə yerli vətəndaşlar muzeylərimizdə eksponatları ancaq tədbirdən tədbirə, harasa dəvət alanda görür. Bəzi muzeylərimizdə müharibə veteranları, əlillər, müharibə iştirakçıları, şəhid ailələri, ibtidai sinif şagirdləri üçün güzəştli girişin tətbiq edilməsi də tamaşaçıların sayının ciddi şəkildə artmasına səbəb olmayıb. Luvr dünyanın ən çox ziyarət olunan muzeyidir. Hər il bu sənət məbədində saxlanılan eksponatlara 8,5 milyon tamaşaçı baxır.

Muzeyşünas Təranə Xudabaxşıyeva: "Təəssüflər olsun ki, bu gün Azərbaycanda muzeylərə maraq istənilən səviyyədə deyil. Bunu görmək üçün ətrafımızda olan şəxslərə "Muzeylərə getmisən" və ya "Muzeylərə getmək istəyirsən" sualını vermək kifayətdir ki, əksəriyyətindən yox cavabı alaq. Onlardan muzeylərə getməmə səbəbini soruşanda isə "Orada nə var e" cavabını alırıq.

Əslində isə muzeylərdə hər kəsin görməli, geniş və dəyərli məlumatlar əldə edəcək çox eksponatlar vardır. Təəssüflər olsun ki, bir çox turistlərin maraqla izlədikləri halda muzeylərimiz yerli əhalidə bu marağı yarada bilmir.

Səbəb isə çox sadədir. Muzeylərimizin reklam və PR-ının aparılmamasıdır. Bu gün hər sahədə olduğu kimi, muzeylərin də PR-a ciddi ehtiyacı vardır. Məhz düzgün və yerində edilən PR strategiyası nəticəsində muzeylər yerli əhalini də cəlb edib yaxşı gəlir əldə edə bilərlər.

Düşünürəm ki, muzeylər peşəkar PR-çılar ilə işləməlidir. Bu zaman onlar daha çox turist və yerli əhalini cəlb edə bilərlər. Təbii ki, muzeylərin rəhbərləri muzeylərə ayrılan büdcədən PR və reklam büdcəsi ayıraraq düzgün təbliğat apatmaqla il ərzində daha çox bilet satışı edə bilərlər.

Muzeyi ziyarət etmək insanlara keçmişini, dəyərini anlamağa, tarixinin nə qədər zəngin olduğunu gözləri ilə görməyinə imkan yaradır. Bu, insanları mənən zənginləşdirir, özgüvən verir. Keçmiş ilə onları üzləşdirir. Bu da vətəndaşı vətənini sevməyə, onunla qürur hissi keçirməyə daha da sövq edir. Uşaqlarımızı isə daha da maarifləndirir. Onların tərbiyə almalarına, vətənə sadiq vətəndaş olmalarında mənəvi rol oynayır".

***Havar Şəfiyeva***



# 50 ilin hesabatı

## TƏBRİK

Mənalı ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda yerini tutan, başqaları üçün nümunə olmaqla ətrafında yüksək fikirlər formalaşdıran, qələmi və fəaliyyəti ilə zamanın axarında sözünü cəsarətlə deyərək ömrün 50-ci baharını yaşayan tanınmış jurnalist Rövşən Rəsulov bu gün sözün həqiqi mənasında özünə yaşadığı illərin hesabatını vermək məqamına çatıb. Nə etmişəm? Nələrə nail olmuşam? Çətin sual olsa da, insan qeyri-ixtiyari olaraq bu suallar vasitəsilə özü ilə səmimi bir dialoq qurur. Arzu və yaradıcılıq qüvvəsi tükənməyən jurnalist həmkarımız uzun illərdir ki, "Səs" qəzetinin fədakar jurnalisti kimi üzərinə düşən öhdəlikləri layiqincə, ləyaqətlə yerinə yetirərək, öndə olanlardan biri kimi fərqlənib. Mənalı ömrünü qəzet jurnalistikasına həsr edən R.Rəsulovun müasir dövrümüzdə çox az qalmış peşəkar jurnalistlər sırasında adı hallanır. Axı o, peşəkar jurnalistlər, ziyalılar mühitində boy atmışdır. Əmisi qocaman jurnalist Firudin Rəsulovun milli mətbuatımızdakı nəfəsi, dəsti-xətti çoxlarına örnək olduğu kimi, R.Rəsulovdan da yan ötməmişdir. Onunla uzun illərdir ki, "Səs" qəzetdə birgə addımlayırıq. Hər zaman məsuliyyətli, diqqətli olan bir insan olaraq, kollektivin dərin hörmətini qazanmışdır. Yaşından asılı olmayaraq, hər kəsin çətin və xoş günündə yanında olur, sevinc və kədərini bölüşür. Hətta yaradıcılıq görüşlərini belə bölüşməyi əsirgəmir. İllərin təcrübəsini paylaşır ki, yetişməkdə olan gənc jurnalistlərin peşəkarlığında rolu və payı olsun. Buna da nail olur. Onun səmimiyyəti, etibarı, dostcanlılığı, qəlbinin dərinliklərindən süzülüb gələn işığı, eynəyinin arxasından həmişə sezilən həyat eşqi, ən sıxıntılı vaxtlarda belə həyatla mübarizədə sarsılmaz qətiyyəti onu ətrafındakı insanların nəzərində ucaldan ən ali cəhətlərdəndir.

Ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrə laqeyd qalmayaraq, vətənpərvərlik mövqeyini nümayiş etdirən R.Rəsulovu hər zaman belə prinsipial olub. Təkcə qəzetdə deyil, eyni zamanda, televiziya kanallarında da bir ekspert kimi cəmiyyətə öz mövqeyini sərgiləyir.

Ulu Öndər Heydər Əliyev ideologiyasının təbliğində fəal mövqe tutan R.Rəsulovun heç nədən çəkinmədən cəsarəti ilə qələmə aldığı məqalələrində qətiyyətli mövqeyi özünü büruzə verir. Dövlətə, dövlətçiliyə bağlılıq onun cəmiyyətdə nüfuzunu artırıb. Ən çətin anlarda mübariz qələmi, döyüşkən ruhu özünü göstərib.

Bu illər ərizində dövlətimizə, dövlətçiliyə sədaqəti dövlətimiz tərəfindən layiqincə dəyərləndirilmişdir. Bir jurnalist olaraq Prezident İlham Əliyevin Sərəncamı ilə inşa olunan jurnalistlərin binasında evlə təmin edilmişdir.

Əlbəttə ki, yola saldığı onilliklər yarım əsri haqladıqdan sonra həyat fəlsəfəsinin rəngarəngliyi bu zaman məsafədə özünü göstərməkdədir. Zamanın ixtiyarına buraxdığı ömrə nəzarət edən ağıl və idrakı yaşanılan illərin mahiyyətini açıb göstərir, naxış salınan izlərin əlvanlığında kimliyi təsdiqlənir və bu aləmdə varlıq olaraq mövcudluğunu dərk edir. Həyat yoluna salınan körpülər üzərindəki hərəkəti, izi Rövşənin varlığını tamamlayır. Ömrünü yalnız amalı və məqsədi yoluna həsr edib, daim tələsib ki, istək və arzunu həyata keçirsin. Kənardan görünən odur ki, o, xoşbəxtdir. Çünki o, ömrünü həsr etdiyi peşəsini və ailəsini sevir. Ailəsi və övladlarının firavanlığı üçün yorulmadan çalışır.

Bəli, o elə insanlardandır ki, cəmiyyət üçün gərəkli bir simaya çevrilir. Vətənpərvərlik duyğuları ilə zəngin ictimai-siyasi mövzulu yaradıcılığı ilə. Bu gün 50 illik yubileyini qeyd edən R.Rəsulov genişürəkli, mübariz, axtarışlarla zəngin olan bir ömrün yaradıcısıdır. Əslində, bu və digər keyfiyyətləri özündə birləşdirən R.Rəsulov elə varlığının yaradıcısıdır. Daxilindəki bacarıq və qabiliyyətini üzə çıxarıb, ağılın diktəsi və məntiqlə hərəkət etmək cəmiyyətdə öz yaradıcısına çevrilmək deməkdir.

50 il - 50 bahar, 50 xəzan, 50 qış yaşamış bir ömrün zaman məsafəsindən boylanan illəridir bu onilliklər. Bu illəri arxada qoyub, ömrün müdrikliyinə qədəm qoyan həmkarımızın haqq-hesab verməyə yaradıcılıq yolunda dəyərli məqamlar var. Bu, onun yaradıcılıq bioqrafiyasıdır.

Rövşən beləcə, yarım əsrlik bir yol gəlib. 26 yanvar tarixində onun doğum günüdür və əməkdaşımızın 50 illik yubileyi "Səs" Media Qrupu tərəfindən qeyd olundu və Media Qrupunun rəhbəri Bəhruz Quliyev, eləcə də kollektivimiz ona səmimi təbriklərini ünvanladılar. Qarşıdakı yarım əsrdə ona sağlamlıq, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayırıq. Yüz yaşa, Rövşən!

# Bütün dünyada

# VARDANYAN İFŞA OLUNDU

***Qondarma rejimin dövlət naziri kimi özünü qələmə verən Ruben Vardanyan BBC-nin efirində yayımlanan "Hard Talk" proqramında çətin vəziyyətə düşdü və hətta ifşa olundu desək, yanılmarıq. Verilişin aparıcısı Stiven Sakurun suallarından yayınmağa can atdıqca və həqiqəti, mövcud reallıqları gizlətməyə çalışdıqca özü-özünü ifşa edən Vardanyan beynəlxalq ictimaiyyətin gözü qarşısında çox biabırçı, hətta acınacaqlı bir vəziyyətə düşdü, hansı ki, belə olacağı gözlənilən idi.***



İki il öncə Ermənistanın baş naziri Nikol Paşinyanın rüsvay olduğu eyni efirdə qondarma dövlət naziri hansısa xal qazanmaq fikrində olsa da buna nail ola bilmədi. Aparıcı Stiven Sakurun sualları qarşısında gözlərini döyən Ruben həmin suallardan yayındıqca çox məqamlar üzə çıxdı. Özünün erməni baş nazirindən daha professional, daha layiqli olduğunu göstərmək istəyən bu adam da eyni ilə Nikol kimi, hələ ondan da artıq şəkildə rüsvay oldu. Onun kimliyi, nəyə və hara xidmət etdiyi suallardan sonra dərhal özünü biruzə verdi və ifşa olunduğunu indi özü hamıdan daha yaxşı bilir.





Guya "erməni hüquqlarının müdafiəçisi" kimi Qarabağa gəldiyini deyən Vardanyan məhz sözügedən efirdə göstərmiş və təsdiq etmiş oldu ki, o heç də bu niyyətlə gəlməyib. Bunu elə ermənilərin özləri də anladılar. Təsadüfi deyil ki, bu barədə Ermənistana məxsus mətbuat səhifələri də açıq şəkildə qeyd edirlər. Hətta qeyd olunur ki, Ruben həmin ərazilərə açıq-aydın bir gündəliklə gəlib və Kremlin oyunçusudur. Bu maliyyə fırıldaqçısının yenə də maliyyə resurslarına göz dikdiyi də özünü dərhal göstərir və hətta həmin resursların belə bundan sonrakı "fəaliyyəti" üçün maliyyə mənbəyi olacağının planlanıldığı da bəlli məsələdir. Hər dəfə sual verildiyi zaman Kremlin layihəsi olduğunu gizlədən Vardanyan buna əminliyi daha da artırmış oldu.

Müsahibə zamanı dərhal hiss olunur ki, Ruben Vardanyan çox naşıdır və siyasətdən qəti başı çıxmır. Dərhal hiss olunur ki, onun tərzi belə siyasətə uyğun deyil və bunun adı ancaq hiyləgərlik ola bilər. Bunu artıq bütün dünya gördü və bir daha əmin oldu. Həm də ona əmin oldu ki, siyasətdən başı çıxmayan, siyasətdə naşı olan birinin siyasi arenaya atılması yalnız layihə ola bilər və bu layihənin də mütləq bir müəllifi var. Təbii ki, müəllifin Moskvadakı siyasi texnoloqlar olduğu da dərhal aydın oldu. Çünki hər suala cavab verdiyi zaman o Kremlin oyunçusu olduğunu gizlədirdi, yaxud da bunu etiraf etməkdən yayınırdı. Lakin göz önündə olanlar bunun əksini təsdiq edirdi, baxmayaraq ki, o bunun üstünü örtbasdır etməyə çalışırdı.

Hansısa layihənin tərkib hissəsi olduğunu ört-basdır etmək üçün Vardanyanın bütün səyləri əbəs idi. Bunu təsdiq edən birinci məqam o idi ki, qondarma "dövlət naziri" suallara cavab verə bilmirdi. Yəni onun müstəqil fikrinin olmadığı, cavab vermək üçün belə məsləhətləşmələrə ehtiyacının, tapşırıqlara qulaq asmaq, əməl etmək kimi bir mükəlləfiyyətinin olduğu dərhal duyulurdu. Dərhal duyulurdu ki, Ruben müstəqil iradə sahibi deyil, baxmayaraq ki, o özü-özünü dövlət naziri kimi hər zaman qələmə vermək üçün dəridən-qabıqdan çıxıb. Suallar qarşında çıxılmaz vəziyyətə düşdüyü, eləcə də cavab verməkdə acizliyi dərhal hiss olunurdusa, deməli, cavab verməkdən belə qorxurdu. Bu da o deməkdir ki, Vardanyanın ixtiyarı belə öz əlində deyil və artıq yaxası kimlərinsə əlindədir.

Qondarma rejimin dırnaqarası "dövlət naziri" sözügedən efirdə məhz erməni baş naziri Nikol Paşinyanla aralarında olan ixtilaflar barədə də nə isə deməkdən əbəs yerə çəkinmədi. Təbii ki, Vardanlan tərkib hissəsi olduğu layihənin açılacağından ehtiyat etdi. Erməni baş nazirlə aralarındakı ixtilaflar barədə onun danışmaq istəməməsi təsdiq etdi ki, Moskva tərəfindən xüsusi gündəliklə göndərilib və Kremlin heç də xoşu gəlməyən Paşinyanı zərərsizləşdirmək, imkan olduqda onu uzaqlaşdırmaq niyyətinə xidmət edir və bunun açılmaması üçün məsələni gizlədir. Bunu təsdiq edən bir məqam isə Vardanyanın Rusiya prezidenti ilə yaxın münasibətdə olduğunu gizlətməsi, bunu etiraf etməməsidir. Amma bu reallığı demək olar ki, hamı bilir. Sözsüz ki, efirdə heç kim Vardanyandan səmimi cavab, yaxud etiraf gözləmirdi və onun cavabları sadəcə bəzi mətləblərin açılmasına kömək etdi, hansı ki, bu onun iç üzünü də bir daha açıb ortaya qoydu.

Yaxşı bəs niyə bu Vardanyan Rusiya-Ukrayna müharibəsinin Ermənistana təsirləri barədə sualı da cavabsız qoydu? Ümumiyyətlə, bu adamın öz ağasını gizlətdiyinə indi zərrə qədər şübhəsi olan qaldımı? Qalmadı, çünki onun xüsusi təlimatla Qarabağa gələrək Rusiyanın strateji layihəsinə xidmət etdiyi hər addımda özünü biruzə verdi. Məhz BBC-nin efirində yayımlanan "Hard Talk" proqramında bir daha hər kəs əmin oldu ki, Kreml özü Vardanyanı göndərib və məhz Qarabağ kartı vasitəsi ilə Ermənistan üçün hazırlayır. Özü də məxsusi olaraq Paşinyan üçün. Bəli, Rusiyanın çoxdandır cəzalandırmaq istədiyi Nikol üçün hazırlanıb və Ruben də bunu hər vəchlə gizlətmək istəyir. Çünki bu planda Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılması ssenarisi də ola bilər və bu məsələdə Vardanyan da divident qazanmaq niyyəti güdür. Özü də bu gün əgər Ermənistanda Robert Koçaryanın, yaxud Serj Sarkisyanın nüfuzundan danışmağa dəyməzsə, onların heç bir təsir imkanları da, siyasi çəkiləri də yoxdursa, deməli Vardanyan bu məqamdan yararlanmaq istəyir, baxmayaraq ki, Rusiyanın planında bu olmaya da bilər.

Ermənistanın son vaxtlar Rusiyaya qarşı aqressiv mövqeyinin cavabsız qalmayacağını təkzib edən tapılmaz. Buna ermənilər özləri də hazırlaşırlar və qəbul edirlər ki, bu nə vaxtsa olacaq. Məsələ burasındadır ki, bu cavabın verilməsində Vardanyandan da istifadə olunur. Vətənsizlərin isə xəyanətkar mövqeyi fonunda Rubenin bu layihədə maşa rolunu oynaması artıq gözlənilən haldır. Bu, yəni öz ölkəsini, öz dövlətini, öz xalqını hansısa layihəyə qurban vermək kimi bir addım erməni xisləti üçün heç də qeyri-adı sayılmır, təki divident olsun. Bu siyasi divident də ola bilər maddi divident də, əsas odur ki, Vardanyan kimisi üçün bunun heç bir fərqi yoxdur, hansıki bundan da Rusiya məharətlə istifadə edir. Ruben də öz növbəsində heç bir suala cavab vermək istəmir, suallardan yayınır, yaxud həqiqəti gizlədir ki, gələcək layihələrin cizgilərini göstərməsin.

Doğrudur, qondarma rejimin dırnaqarası "dövlət naziri" BBC-nin efirində yayımlanan "Hard Talk" proqramında həddini də aşdı. Onun, "Qarabağı tərk etməyəcəyi" barədə fikir bildirməsi boyundan hündürə tullanmaq cəhdi ilə eyni sayıla bilər. Birincisi, Qarabağı tərk edib-etməyəcəyi, bir sözlə ixtiyarı Vardanyanın heç də öz əlində deyil. Çünki əvvəla, onun ipi rusların əlindədir, nə əmr etsələr onu da icra etməlidir və edəcək də. Yəni, Ruben hansısa qərar vermək ixtiyarına belə malik deyil, dedikləri də yenə nəyi isə gizlətməyə hesablanmışdı. Digər tərəfdən də Azərbaycan tərəfi bu maliyyə fırıldaqçısına elə bir imkan verməyəcək ki, Qarabağ ərazisində at oynatsın. O, istənilən an anti-terror əməliyyatları zamanı zərərsizləşdirilə bilər və bu da onun sonu deməkdir, nəinki Qarabağı tərk etməsi. Bu baxımdan Ruben Vardanyanın bu fikrinin də cəfəngiyyatdan başqa bir şey olmadığı özünü bir daha ortaya qoyur.

"Mən bura savaşmağa gəlmişəm", deyən Ruben Vardanyan bununla "Hard Talk" proqramında özünü ifşa etməsi ən diqqətçəkən məqamdı. Doğrudur, aparıcı aydın şəkildə deyir ki, siz Azərbaycanın qanunları ilə yaşamalısız, Azərbaycan sülh istəyir, amma o dediyini bir daha təkrar edir. Bütün bunlar milyonlarla tamaşaçının diqqətindən yayınmır. Bu günə qədər erməni yalanlarına istər inananlar, istər inanmaq istəyənlər, istərsə də bu yalanları tirajlayanlar fərqli bir mənzərəni müşahidə etdilər. Müşahidə etdikləri də o oldu ki, separatçıların başçılarından biri açıq şəkildə deyir ki, biz sülh istəmirik, biz savaş istəyirik. Bax elə belə deməkdə də Ruben özünü və bütün separatçıları ifşa etdi. Dünya ictimaiyyəti bir daha gördü və əmin oldu ki, separatçıların niyyəti heç də sülh deyil, ancaq müharibə və savaş istəyindədirlər. Bir sözlə, əsl üzünü ortaya qoyan həmin o qondarma rejimin dırnaqarası "dövlət naziri" məhz beynəlxalq müstəvidə ifşa olundu. Doğrudur, aparıcı Stiven Sakur Ruben Vardanyanı hamının gözü qarşısında divara dirədi. Yəni, Vardanyan öz payını aldı, amma ən diqqətçəkən məqam onun özünün özünü dəfələrlə ifşa etməsi oldu ki, biz də bunu müşahidə etdik.

***İnam Hacıyev***

# Psixoloji kitablar insanlara necə təsir edir?



ARAŞDIRMA

***Bilirik ki, psixi vəziyyətimiz gündəlik həyatımızda bir çox şeydən təsirlənir. Bu, qaçılmazdır, çünki ətraf mühitlə daim qarşılıqlı əlaqədəyik. Ətrafımızda bizə təsir edən amillərə qısaca toxunsaq, bütün günü ünsiyyətdə olduğumuz insanlar, yolda gedərkən sevgi və ya qorxu ilə baxdığımız heyvanlar, axşam evə gedəndə açdığımız əsas xəbər bülletenləri, bir bölümünü belə qaçırmadığımız həftəlik seriallar, işimizi rahat görmək üçün televizorun qarşısında oturub uşağımızı tək qoyduğumuz cizgi filmləri, oxuduğumuz qəzetlər, romanlar, çox vaxt tək dostlarımız və s. bura aiddir.***

”Bir gün bir kitab oxudum, bütün həyatım dəyişdi”. Bu sözü hamımız eşitmişik. Kitablar həqiqətən də həyatımızda bəzən dönüş nöqtəsi təşkil edəcək qədər vacibdir. Heç ağlınızdan keçməyən ideyalar və maraqlı fikirlər kitab oxuduqdan sonra beyninizdə öz yerini ala bilir. Kitab oxumaq fərdlərin inkişafına böyük təsir göstərir. Bunun insanların təfəkkür və təxəyyülünü təkmilləşdirmək, söz ehtiyatını artırmaq, insanlara müxtəlif təcrübə və biliklər vermək kimi bir çox faydaları var.

Hər hansı bir mövzuda fikir sahibi olmaq istəyən fərd ilk növbədə o mövzuda ”biliyə” malik olmalıdır. Bir mövzuda bilik əldə etmək isə, o mövzunu araşdırıb oxumaqla mümkündür. İnkişaf etməmiş cəmiyyətlərdə vaxtlarını kitab oxumaq əvəzinə faydasız işlərə sərf etmək isə adi haldır. Psixologiya insan və heyvan davranışının koqnitiv müddətini öyrənən elmdir. Bu elm insanların davranışlarının altında yatan səbəbləri araşdıraraq həll yolu tapmağa çalışır.

Bu elm sahəsi ilə məşğul olan şəxslərə də psixoloqlar deyilir. Psixoloqlar insanların davranışlarını yaxından araşdırır, davranışların səbəblərini tapır və elmi şəkildə izah etməyə çalışır. Psixologiyanın əsas məqsədi insanların əvvəlcə öz mənlikləri ilə, sonra isə cəmiyyətdəki digər insanlarla uyğunlaşmasını təmin etməkdir. Bu gün bir çox problemləri qiymətləndirsəniz, onlar İnsanların bir-birini dinləməməsindən, bir-biri ilə oturub danışa bilməməsindən və daim mübahisə etməsindən irəli gəlir. Burada psixoloqlar insanların əhval-ruhiyyəsini anlayır və onları daha sağlam fərdlər edir.

Başqa insanların psixoloji həyatı ilə maraqlanan bir qrup insan da var. Burada isə psixologiya kitabları işə düşür. Bu kitablar bəzən insanların travmatik əhval-ruhiyyəsindən uydurma şəkildə bəhs edir, bəzən isə yalnız tədris, tərbiyəvi və ibrətamiz məqsədlə yazıla bilər.



SİA mövzu ilə bağlı araşdırma aparıb. Maraqlı psixoloji kitablar:

### Psixiatrın Gizli Dəftəri - Gary Small, Gigi Vorgan

Bu kitabda Garry Small peşəkar həyatı boyu yaşadığı hadisələri toplayıb. Onunla xəstələri arasındakı dialoqlar, diaqnoz mərhələsi və sonrakı hekayələr həqiqətən maraqlıdır. Bu kitab sayəsində siz dünyada heç vaxt eşitmədiyiniz psixoloji xəstəliklər haqqında eşidəcək, sağlamlığınıza şükür edəcəksiniz.

Kitabın müəllifi həkimdir. O, 30 ildir xəstələrini müayinə edir, onlarla bağlı müşahidələrini, müalicə mərhələsini və bu prosesdə baş verən bütün hadisələri toplayıb bu kitabda bizə çatdırır. Siz adi psixoloji hadisələri, eləcə də əvvəllər eşitmədiyiniz hekayələri burada oxuya bilərsiniz.

### Ruhi Xəstələrin Daxili Dünyası - Bert Kaplan

Bert Kaplanın ”Ruhi xəstələrin daxili dünyası” kitabı sayəsində əvvəllər bildiyiniz bir çox şeydə səhv etdiyinizi və baxışınızın dəyişdiyini hiss edəcəksiniz. Dəlilikdən, yəni ruhi xəstəliklərdən bəhs edən bu kitab cəmiyyətdə bilinən bir çox səhvlərə işıq salır. Ruhi xəstəxanalardakı xəstələrin əhval-ruhiyyəsi, böhran zamanı hiss etdikləri kimi mövzuların yer aldığı kitab sayəsində həyatı az da olsa onların gözü ilə görə biləcəksiniz. Daha belə bir çox psixoloji kitablar sadalamaq olar.

Əsrlər boyu insan şüurunda baş verən dəyişiklikləri araşdıran psixologiya özünü kəşf etmək istəyənlər üçün ən yaxşı fərdi inkişaf sahəsidir. Bir çox insanlar təkcə özləri haqqında deyil, həm də ətrafındakıların düşüncə tərzini və davranışlarının altında yatan səbəbləri öyrənmək üçün psixologiya ilə maraqlanır. Psixologiya elmi, əslində, hisslərin və düşüncələrin kökündəki səbəbini üzə çıxarır. Ən yaxşı insan psixologiyası kitablarını oxumaqla özümüzü və ətrafımızdakıları daha ətraflı anlaya bilərik. Psixologiya elmini ən yaxşı şəkildə düzgün müəllif seçimi və keyfiyyətli psixologiya kitabları bir araya gələndə başa düşmək olar. İnsanların uşaqlıqdan yetkinliyə qədər zehni inkişafını izləyən psixologiya travmalara qarşı müxtəlif müalicə üsulları tətbiq edir. Ən yaxşı inkişaf psixologiyası kitabları bu müalicələr haqqında sizə məlumat verir. Həm özünüzün, həm də ətrafınızdakıların düşüncə və davranışları haqqında təsəvvür əldə etmək istəyirsinizsə, psixologiya kitablarını oxumaqla başlaya bilərsiniz.

***Ayşən Vəli***

## ”Aİ-nin Ermənistana parol xidməti göndərilməsindən özəl maraqları var”

“Aİ-nin Ermənistan sərhədlərinə mülki parol xidmətinin göndərilməsi ilə bağlı istəyi onun Ermənistanla suveren və ikitərəfli münasibətlərində aid olan bir məsələdir və şübhəsiz ki, qarşılıqlı maraqlara xidmət edir”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, AB Cənubi Qafqaz bölgəsinin regional və geosiyasi səciyyə daşıyan əhəmiyyətindən çıxış edir, bölgənin logistika və tranzit imkanlarından çıxış edir: ”Əlbəttə, AB Ermənistanı mövcud iqtisadi blokada vəziyyətindən çıxarmağa çalışır. Qərbdə Ermənistanın Gürcüstandan sonra Aİ-na inteqrasiya proseslərində oynaya biləcəyi imkanlar nəzərdən keçirilir, burada Qərb əvvəla Ermənistanı Rusiyanın nüfuz dairəsindən çıxarmağa çalışır, onun bölgəyə təsir imkanlarını məhdudlaşdırmağa çalışır. Nəhayət, İranla həmsərhəd bölgədə özünün Təhlükəsizlik kəmərinin möhkəmlənməsinə çalışır. Paşinyanın Sorosçuların dəstəyi ilə iqtidara gəlməsindən çıxış edən Qərb bu missiyanın məhz Paşinyan komandasının vasitəsi ilə reallaşacağına ümid edir. Lakin Qərbdə bəlli dairələr unudurlar ki, bölgənin Qərbin təsir dairəsinə düşməsinin əleyhinə olanlar təkcə Rusiya və İran deyil, müəyyən mənada həm də Çindir. Bu mənada Qərb adıçəkilən tərəflərlə kontaktda işləməli, qarşılıqlı güzəştlərə getməyə hazır olmalıdır. Aİ bölgədə sülhü təminetmə işlərində təşəbbüsü ələ almağa, Rusiyanı bölgədaxili və ətrafında getməkdə olan proseslərdən kənarda tutmağa çalışır.


VOA Video (European Commission)

E.Manafov onu da bildirdi ki, Qərbin bölgədə dayanıqlı sülhü təmin etməklə bağlı məsələdə öz planlarını və əlbəttə, öz maraqları var: ”İndi tərəflər Ukraynada yaşanan hadisələrin hansı sonluqla bitəcəyindən narahatdırlar. Bölgədə növbəti geosiyasi gedişlər də məhz bu qarşıdurmanın doğura biləcəyi reallıqlardan çıxış edərək atılacaq”.

***Gülyana***

## “Aksiya artıq əhəmiyyətli nailiyyət əldə edib”



“Şuşada, Laçın-Xankənd yolunda 46 gündür davam edən dinc aksiya artıq müsbət mənada mühüm əhəmiyyətli nailiyyət əldə edib”. Bunu ”Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, bu aksiyadan Azərbaycan əleyhinə istifadə etmək istəyən düşmən tərəf və onlara dəstək verən güclər, əslində, bu aksiyanı bizdən daha çox təbliğ etdilər: ”Həmin qüvvələrin Azərbaycan xalqının bu dinc, beynəlxalq hüquq normalarına uyğun aksiyasına başqa don geyindirməyə çalışsalar da, bunun əksinin şahidi oluruq. Bəzi maraqlı qüvvələr istisna olmaqla, bütün dünya ekoaksiyanın mahiyyətini düzgün anlayır və bunu xalqımızın qanuni hüququ kimi qəbul edir. Azərbaycan diplomatiyası düşmənin bütün cəhdlərini heçə endirir. Konkret bu aksiyada irəli sürülən tələblərin yerinə yetirilməsi baxımından əhəmiyyətinə gəlincə, bu tələblərin bir qismi artıq nəticəsini verib və verməkdə davam edir. Məhz aksiyanın nəticəsidir ki, 46 gündür Azərbaycanın sərvəti ölkədən qanunsuz çıxarılmır”.

T.Novruzov onu da bildirdi ki, Qarabağda yaşayan ermənilərin xeyli qismi artıq Azərbaycanın qanunları ilə yaşamaq istəklərini açıq-aşkar səsləndirirlər: ”Bölgəyə qeyri-qanuni səfərlərin, o cümlədən terrorçuların gəlməsi dayandırılıb, bölgəyə qanunsuz hərbi silahların gətirilməsinin qarşısı alınıb. Bunlar, hesab edirəm ki, aksiyanın mühüm nailiyyətləridir. Ancaq yola Azərbaycan tərəfinin daimi nəzarətinin təmin edilməsi, Xankəndi, Xocalı, Xocavənddən olan məcburi köçkün Azərbaycan vətəndaşlarının doğma yurdlarına dönmələri, ərazidə Azərbaycan qanunlarının tətbiq edilməsi kimi mühüm məsələlərə, bunlar da tezliklə həllini tapacaq. Dünya gücləri nə qədər ermənilərə dəstək versələr də, Azərbaycanın siyasi rəhbərliyinin qətiyyətli mövqeyi, bu mövqeyə söykənən diplomatiyası, nəhayət, ölkəmizin hərbi qüdrəti bütün bunların tezliklə müsbət həll ediləcəyinə əminlik yaradır”.

***G. Ağakərimova***




# İran məktəblərində zorlanan oğlanlar - "İndependent" yazır ki...

**Və ya adını "İslam Respublikası" qoyan bir dövlətin rəsmi qurumu hadisənin baş verməsinin təfərrüatlarını araşdırması yerinə, həmin hadisənin "məktəbdən kənar" yerdə baş verdiyini iddia etməklə yaxasını kənara çəkir, yaxud dəhşətli və idbar cinayət faktının üzərindən rahatlıqla keçir!**

## DƏHŞƏT!

Tehran rejiminin nəzarəti altındakı təhsil müəssisələrinin birində daha bir dəhşətli fakt üzə çıxıb. Bu barədə Böyük Britaniyanın "İndependent" nəşri yazır. Nəşrin apardığı araşdırmaları nəticəsində məlum olub ki, məktəblərin birində fəaliyyət göstərən bir kişi ən azı 15 ibtidai sinif oğlan uşağını zorladığını etiraf edib. Məhz həmin fakt üzə çıxandan sonra İran mediası da sözügedən mövzuya toxunub. Belə ki, Tehranda işıq üzü görən "Etamad" qəzetinin yazdığına görə, keçən həftə ölkənin cənub-qərb şəhərlərinin birində ibtidai sinifdə oxuyan "R" adlı məktəbli oğlanın sürücüsünün şagirdlərə ardıcıl cinsi təcavüz etdiyi barədə xəbərlər dərc olunmuşdu. Ancaq...

### Özünü təmizə çıxarmaq cəhdləri də belə düşünməyə əsas verir...

Ancaq İran mediasına aid olan qəzet bu olayı hər vəchlə gizlətməyə və faktı tamamilə başqa səmtə yönəltməyə cəhd edib. Misal üçün, "Etamad" yazıb ki, "R" adlı şagirdin psixi və fiziki vəziyyəti ürəkaçan deyil və bu oğlan, hətta bir neçə dəfə intihara belə cəhd edib. Lakin bu belə olsa da, söz yox ki, həmin məktəbin müvafiq dairələri, eləcə də təhsil şöbəsi "xəstə" dedikləri şagirdin vəziyyətinə müqabil onun sağlamlığı haqqında düşünməli idi. Fəqət bu, heç də belə olmayıb və özünü təmizə çıxarmaq cəhdləri də belə düşünməyə əsas verir.

Məsələn, şəhərin təhsil şöbəsinin ictimaiyyətlə əlaqələr müdiri bu xəbərlə bağlı deyir: "Bu xəbərin təhsil şöbəsi ilə heç bir əlaqəsi yoxdur. Bu, məktəbin binasından kənarda baş verib" (?!).

Belə çıxır ki, adını "İslam Respublikası" qoyan bir dövlətin rəsmi qurumu hadisənin baş verməsinin təfərrüatlarını araşdırması yerinə, həmin hadisənin "məktəbdən kənar" yerdə baş verdiyini iddia etməklə yaxasını kənara çəkir, yaxud dəhşətli və idbar cinayət faktının üzərindən rahatlıqla keçir!

### İranda bənzər olaylar yalnız məktəblərdə baş vermir, həm də dini hövzələrdə də həmin halların yaşanmasını əks etdirən faktlar olub

Tehran Bələdiyyəsi isə məktəb xidmətinin fəaliyyəti ilə bağlı deyir ki, məktəb xidməti Bələdiyyə nəqliyyat təşkilatındakı sürücüləri süzgəcindən keçirməli və sürücüləri seçərkən diqqətli olmalıdırlar. Maraqlıdır ki, baş verən hadisə qalıb bir kənarda, bunlar iddia edirlər ki, İranın təhsil sistemində "cinsi tərbiyə" öyrətmək lazımdır və bu "tərbiyə" "seks tərbiyəsindən" fərqlənməlidir (?!).

### "Əxlaq" adı altında əxlaqsızlıqla məşğul olan molla rejimi öz xalqına və hətta körpə uşaqlara belə rəhm etmir

Yeri gəlmişkən, qeyd edək ki, İranda bənzər olaylar yalnız məktəblərdə baş vermir, həm də dini hövzələrdə də həmin halların yaşanmasını əks etdirən faktlar olub. Özlərini "din adamları" kimi təqdim edən mollaların oğlanbazlıq əməllərini ifşa edən məlumatlar kifayət qədərdir.

Onu da qeyd edək ki, İranda həbslər və edamlar davam etdiyi bir vaxtda bəzi etirazçıların zindandan buraxıldıqdan sonra intihar etmə səbəblərini təcavüzlərlə əlaqələndirirlər. Göründüyü kimi, "əxlaq" adı altında əxlaqsızlıqla məşğul olan molla rejimi öz xalqına və hətta körpə uşaqlara belə rəhm etmir, azyaşlılara təcavüz edir. Molla rejiminin xalqda qorxu yaratmaq və xalq üsyanına son qoymaq üçün ölüm hökmündən və təcavüzlərdən istifadə etməsi daha da şiddətlənən etiraz aksiyaları fonunda davam edir.

*Rövşən RƏSULOV*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# İrəvan yenə müharibə istəyir: Mirzoyanın Tonoyan blefi...

**Ermənistanın regionda sülhün bərqərar olması istiqamətində nala-mıxa döyəcləməsi əvvəlcədən, hətta üçtərəfli bəyanat imzalanan vaxtdan məlum idi. Daha dəqiq desək, fakt budur ki, Ermənistana etibar etmək olmaz. Əbəs deyil ki, Prezident İlham Əliyev hələ bir müddət əvvəl - 2022-ci ilin yanvarında, ölkə jurnalistlərinə verdiyi müsahibəsində bu barədə danışarkən xüsusilə vurğulamışdı və hazırda da həmin fikirlər öz qüvvəsində qalmaqdadır. Dövlətimizin başçısı müsahibəsi zamanı qeyd demişdi ki, biz hansı qonşu ilə yaşadığımızı heç vaxt unutmamalıyıq: "Halbuki biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər...Əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".**

Və bu gün - İkinci Qarabağ müharibəsinin üzərindən 2 ildən artıq vaxt keçməsinə rəğmən, Ermənistan rəhbərliyi nəinki sülh prosesini yubadır, hətta ölkə iqtidarının rəsmiləri dolayı yollarla müharibə ab-havası əsdirir. Görünür, son vaxtlar Qərbin bəzi dairələrinin Ermənistanın böyük bacısı Fransanın təhriki ilə Aİ missiyasının bu ölkəyə göndərilməsi və s. maraqların təmin edilməsi rəsmi İrəvanın "qoltuğuna qarpız" verib. Amma həmin "qarpızın" elə erməni rəsmilərinin qoltuğunun altında "partla(dıl)ması" mümkünlüyü daim öz qüvvəsindədir.

Beləliklə, Ermənistanın XİN başçısı Ararat Mirzoyanın məhz Azərbaycan əleyhinə qətnamələr çıxarmağa alışıq olan və korrupsiyalara bulaşan Avropa Parlamentinin xarici işlər üzrə Komitəsində səsləndirdiyi fikirləri də belə qənaətə gəlməyə zəmin yaradır ki, Paşinyan iqtidarı sülh istəmir. Təkcə onun "Laçın dəhlizindəki blokadanın aradan qaldırılmasının iki yolu var - ya hərbi, ya da diplomatik" fikirlərini analiz etsək həmin fikirlərin arxasında açıq-aydın təhdid xarakterini sezməmək mümkün deyil. Düzdür, o özünü və ölkəsini avrodeputatların qarşısında "sülhpərvər" kimi göstərməyə cəhd edir və bildirir ki, "Ermənistan ikinci varianta sadiqdir", amma bu anda digər sual yaranır: tutaq ki, ikinci deyil, birinci variant aktuallaşdı, bax, onda Ermənistan Azərbaycanın qarşısında nə edə biləcək?! Və biz hələ Mirzoyanın beynəlxalq aləmi qətiyyətli şəkildə Azərbaycana qarşı təzyiqlərini artırması çağırışlarını demirik...

Görünür, 2020-ci ilin noyabr ayının 10-da erməni parlamentinin qarşısında başıpozuq kütlə tərəfindən vəhşicəsinə döyüldüyünü unudan Ararat Mirzoyan aldığı kəllə-beyin travmalarından tam sağalmayıb. Yaxud, bu siyasi mazoxist döyüldüyü vaxt parlamentin spikeri idi və görünür, indi də XİN başçısı timsalında onun könlündən möhkəm döyülmək keçir...

Bu yerdə daha bir məqam yada düşür. Hələ 2020-ci ilin 27 sentyabrından öncə Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan "Yeni müharibə - yeni ərazilər" adlı sərsəm konsepsiyasını irəli sürmüşdü. Ona görə də Nikol Paşinyanın "sağ əli" hesab edilən Mirzoyan bu gün baş nazir tərəfindən həbsə atılan Tonoyanın da aqibətini gözləri önündə canlandırmalıdır, amma hələ ki, axmaq bəyanatları ilə bunu edə bilmir. Edə bilmirsə, sonra baş verəcək hadisələrə görə də məsuliyyətin böyük bir hissəsinin məhz onun öz boynuna düşdüyünün fərqinə varmalıdır.

Bəs birinci variant seçilsə, nə ola bilər? İlk növbədə, erməni əsgər və zabitləri açılan cəbhələrdə nəinki öz leşlərini toplamağa macal tapa bilməyəcəklər, hətta döyüş mövqelərində səpələnəcək sürsümüklərini belə doğru-dürüst yığmağa imkan tapmayacaqlar. Ona görə də İrəvanın baş diplomatının sözügedən bəyanatı müharibə çağırışı kontekstində səsləndirirsə, həmin çağırışı, əslində, Azərbaycan çoxdan gözləyir. Buyurub başlasınlar! Ancaq unutmasınlar ki, belə olan vəziyyətdə rəsmi Bakıya qarşı hər hansı təzyiqlər çoxalarsa, Bakının da İrəvanda qərarlaşması mümkünlüyü bir o qədər artacaq və buna şübhə belə olunmamalıdır!

Başqa yandan, hərgah Mirzoyan hərb etməyə hazırlaşırsa, bu, ayrıca bir məsələdir. Daha doğrusu, Ermənistanın hansı silah-sursatlara malik olduğu kimsəyə sirr deyil. Bu silah-sursatlar isə uzağı bir neçə günə istifadə olunacaq. Bəs sonra? Sonrası isə bəllidir: yenə də "məzlum erməni xalqının genosidə uğradılması", "əzabkeş ermənilərin qəddar türklər tərəfindən əzilməsi" və s. Fakt budur ki, Azərbaycan əsgəri erməni "fədailərini" Bala Göyçənin o tayına qədər qovublar və Ana Göyçə ayaqlar altındadır!

Ararat Mirzoyan isə harada olursa-olsun danışarkən ağzına yiyəlik etməyə məhkumdur. Xüsusilə, Qarabağdan danışanda. Yəni onun ölkəsinə aid olmayan bir məsələ haqqında fikir bildirməsinə ehtiyac yoxdur. Qarabağdakı ermənilər isə Prezident İlham Əliyevin vurğuladığı kimi Azərbaycan vətəndaşlarıdır. Bu baxımdan, Mirzoyan öz "məsləhətlərini ya qoysun cibinə, ya da başqa yerinə...

# “Daşaltı əməliyyatını heç bir zaman unutmayacağıq!”





“Bu gün Azərbaycan Ordusunun həyata keçirdiyi, lakin uğursuzluqla nəticələnən Daşaltı əməliyyatından 31 il ötür. Bildiyimiz kimi, bu əməliyyat Şuşanın Daşaltı kəndinin erməni işğalından azad olunması məqsədilə aparılıb və 1992-ci il yanvarın 25-i axşamdan 26-sı axşama qədər davam edib”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.

Onun sözlərinə görə, əməliyyat zamanı hava şəraitinin sərtliyi, hərbi əlaqənin pis təşkil edilməsi, əməliyyat sirrinin yayılması və xəyanət ucbatından uğursuzluğa səbəb olub: ”Daşaltıya daxil olan tağım ermənilərin pusqusuna düşüb. Digər tağımlar da itki verərək geri çəkiliblər. Azərbaycan Ordusu uğursuz əməliyyatda 100-ə yaxın itki verib, Müdafiə Nazirliyinin Kəşfiyyat Bölüyünün rəis müavini olan polkovnik-leytenant Riad Əhmədov isə itkin düşüb. Onun taleyindən bu günədək heç bir məlumat yoxdur. Əməliyyat zamanı çətinliklərə və xəyanətə baxmayaraq bizim tağım düşmənin 80 dən çox döyüşçüsünü məhv edilib”.

Deputat sözlərinə belə davam edib: ”Qeyd edim ki,bu əməliyyatın keçirilməsi üçün Şıxov taborundan 200 nəfər ayrılmışdı. Əməliyyata isə sabiq müdafiə naziri Tacəddin Mehdiyev rəhbərlik edirdi. 2020-ci ilin sentyabrın 27-dən başlayaraq 44 günlük müharibə dövrü Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları nəticəsində Ermənistanın uzun illər işğal altında saxladığı torpaqlar azad olunub. Müzəffər Azərbaycan Ordusu düşməni Qarabağdan qovub. Müharibə dövrü düşmən xeyli sayda canlı qüvvə və texnika itkisi ilə üzləşib və geri çəkiliblər.

2020-ci ilin noyabrın 9-da Azərbaycan Ordusu 1991-ci ildən etibarən erməni silahlı dəstələrinin nəzarəti altında olan Daşaltı kəndini işğaldan azad ediblər və 28 ildən sonra ”Daşaltı əməliyyatı”nın qisası Qüdrətli Ordumuz tərəfində alınıb. İşğal altında saxlanılan Azərbaycan torpaqlarında vandal-casına, ermənilər canilik göstərərək insanlarımıza zülm verərək öldürmüşlər. Bunu aşkar olunan kütləvi məzarlıqlardan da görmək olur. Bu məzarlıqlardan biri 2021-ci ilin fevralın 17-də Daşaltı kəndi ərazisində 7 nəfərə məxsus meyit qalıqları da aşkar olunmuşdur.

Bu məzarlıqda gömülmüş insanların əlləri və ayaqları bağlı vəziyyətdə güllələnmiş şəkildə tapılmışdır. Düşmən hətta çarəsizlik içində əsir düşmüş övladlarımızdan qorxaraq, onları bağlayaraq qətlə yetirmişlər..

Ermənistan silahlı qüvvələri tərəfindən hər zaman bütün Beynəlxalq o cümlədən Cenevrə Konvensiyaları da kobud surətdə pozulub. 1988-1994-cü illərdə 3890 nəfər itkin düşüb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri isə mülki şəxs olub. İtkin düşənlərin 872-nin əsir-girov götürülməsi barədə məlumatlar mövcuddur. Əsir və girovluqdan azad edilmiş 1480 nəfər şəxsdən 378-i hərbi qulluqçu, 1102-si mülki şəxs olub. Mülki şəxslərdən isə 224-ü uşaq, 357-si qadın, 225-i qoca olub. Əsir və girovluqda ölmüş 552 nəfərdən 447-si kişi, 105-i qadın olub.

Qeyd edək ki, Prezident İlham Əliyev 2021-ci ilin martın 16-da Daşaltı kəndində olub. Dövlət başçısı bildirib ki, məhz Müzəffər Ordumuz Daşaltı kəndindən qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil olub.

Biz heç zaman tariximizin ”Daşaltı əməliyyatı”nı unutmayacağıq! 2022-ci il aprelin 21-də isə dövlət başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış olub və elə həmin gün kəndin bərpası ilə bağlı tapşırıqlar verib. 2021-ci ilin noyabrın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində məscidin təməlini də qoyublar. Bu o deməkdir ki, biz özümüzə məxsus olanı qaytardıq və qayıdırıq. Kütləvi qəbirlərin aşkarlanması ermənilər tərəfindən törədilmiş hərbi cinayətlərin sübutudur. Bu gün, dünyasını dəyişmiş insanlarımızın, cəsur oğullarımızın sayəsində ruhları azad və şaddır. Düşmən isə, gec də olsa öz əməllərinə görə layiqli cəzasını alacaqdır! Düşmən unutmasın ki, ”Dəmir yumruq ” yerindədir!”.

***Ayşən Vəli***

# Yaxın günlərdə Əfv olacaq?

## *QURUM RƏSMİSİ AYDINLIQ GƏTİRDİ*



“Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ərəfəsində əfv sərəncamının imzalanması ehtimal olunur. Bu qərar iki baxımdan çox əhəmiyyətlidir. İlk növbədə, konstitusion institunun tətbiq praktikası genişlənir. Digər tərəfdən də əfv humanizmin təcəssümüdür və Prezidentin müstəsna səlahiyyətinə aid olan hüquqdur. 1995-ci ildən bugünə qədər Azərbaycan Prezidentinin fərman və sərəncamları ilə 68 əfv olub”. Bu sözləri SİA-ya açıqlamasında Daxili İşlər Nazirliyi yanında ictimai şuranın sədri Əlimməmməd Nuriyev deyib.

Onun sözlərinə görə, bu il biz çox mühüm bir hadisəni - Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik, bu baxımdan bir çox böyük tədbirlər həyata keçiriləcək: ”Bu tədbirlər arasında əfv sərəncamının verilməsi də gözləniləndir. Çünki əfv məsələləri üzrə komissiya artıq yanvar ayının 12-dən iclaslara başlayıb. Keçirilən 3 iclasda 400-ə yaxın müraciətə baxılıb və bu müraciətlərlə bağlı müvafiq rəylərin hazırlanması prosesi gedir. Növbəti iclasda da yüzlərlə müraciətə baxılması nəzərdə tutulur. Ümid edirik ki, Heydər Əliyevin 100 illiyi münasibətilə Prezidentin növbəti əfv sərəncamının imzalamasının şahidi ola bilərik”.

Sədr sözlərinə davam edərək bildirib ki, bu sərəncama kimlərin daxil edilməsi məsələsini Əfv Məsələləri üzrə Komissiya müəyyənləşdirmir: ”Komissiya yalnız əfv hüququnun həyata keçirilməsi ilə bağlı təşkilati-texniki dəstək göstərir və cənab Prezidentə təqdim edir. Bütün hallarda bu addım humanizm və mərhəmət prinsiplərinin növbəti dəfə təzahürü olacaq. Bu, öz fəaliyyətlərində neqativ hərəkətlərə, cinayətlərə yol vermiş şəxslərin yenidən azadlığa çıxmaq şansıdır. Bundan öncə qəbul olunmuş əfv sərəncamlarında olduğu kimi, bu dəfə də azadlığa çıxacaq şəxslərin həm öz ailələri, həm də dövlətimizin firavanlığı uğrunda çalışacağını ümid edirik”.

***Ləman Əlizadə***



**Elçin Bayramlı**

# Təhsil tragikomediyasını qurtarın!

Son vaxtlar orta məktəblərdə baş verən hadisələr haqda mediada və sosial şəbəkələrdə yayılan videolar ciddi ictimai müzakirələrə səbəb olub. Məktəblərdə şagird-müəllim münasibətləri ən biabırçı formalaradək gəlib çatıb, şagirdlərin bir-birini amansızcasına döymələrindən tutmuş, müəllimə qarşı ən tərbiyəsiz hərəkətlər etməsi cəmiyyət və dövlət üçün ciddi siqnaldır. Vəziyyətin bu həddə gəlib çıxmasına müxtəlif səbəblər göstərilir. Lakin onların çoxu məsələyə üzdən baxmaqdır və problemin köklü səbəblərini və həll yollarını göstərmir. Bu yazıda əsl səbəbləri və çıxış yolunu göstərməyə çalışacağıq.

Bəri başdan qeyd edim ki, problem nə müəllimlərdə, nə də şagirdlərdədir. Problemin kökündə Təhsil Nazirliyi və valideynlər dayanır. Biri təhsil verə bilmir, o biri tərbiyə. Son dövrlərdə təhsil sistemi üzərində tətbiq edilən eksperimentlər, kurikulum sistemi adı ilə, ”şagird yönümlü təhsil proqramı” adı ilə tətbiq olunan bu sistem məktəblərdə tamamilə anarxiya və özbaşınalıq yaradıb.

Məktəbin və müəllimlərin tərbiyə vermək funksiyası əlindən alınıb. Hazırda onlar sadəcə təhsil verməklə məşğul ola bilərlər. Uşaqlar istədikləri hərəkəti edə bilər. Hətta müəllimi döymək halları da baş verib. Bütün bunların qarşılığında müəllim heç nə deməməlidir. Şagirdlərin tərbiyəsiz davranışlarına qarşı müəllim tərəfindən görülən tənbehin sonu isə müəllimin cəzalandırılması, bəzən də onun işini itirməsi ilə nəticələnir. Bir çox şagirdlər isə öz növbəsində bu kimi fürsətlərdən necə lazımdır istifadə edir. Artıq onlar bilirlər ki, müəllim onlara bu hərəkətlərinin qarşılığında heç nə deyə bilməyəcək. Hazırda vəziyyət daha da pisə doğru gedir, uşaqlar aqressivləşir, zombiləşir, köhnə ənənələrə sadiq müəllimlər təhsil sferasından uzaqlaşır.

Digər tərəfdən valideynlər övladlarını tərbiyələndirmək xüsusiyyətini tərgidib. ”Yevropeyski” psixoloqların təbliğatına görə, ”Uşaqlara tərbiyə vermək lazım deyil, uşaqdır nə istəsə edə bilər” prinsipi ilə uşaq hər şeyin mərkəzinə gətirilib. Dünya uşağın ətrafında fırlanır. Uşağın ağzından nə çıxdı o saat yerinə yetirilir, valideynlər və digərləri onun xidmətçisi roluna yiyələnib. Heç bir tənbeh, cəza görməyən uşaqlar tamamilə qudurğan, harın, tərbiyəsiz hərəkətlər edirlər.

Onu da bildirim ki, mən də bu hallarla bağlı tənqidi çıxışlarımı sosial şəbəkələrdə paylaşıram. Minlərlə şərh yazılır. Müəllimlər görmədiyimiz daha dəhşətli faktların olduğunu yazırlar. Biz sadəcə işıqlandırılan, yayımlanan hadisələri görürük. Hazırda vəziyyət çox acınacaqlıdır. Uşaqlar öz ailələrində ala bilmədikləri tərbiyəni məktəbdə nümayiş etdirirlər. Bu, valideynlərin mədəniyyət səviyyəsinin uşaqlar tərəfindən nümayişidir.

Bu məsələlər çox dərindir. Qısa desək, bu kimi hallar uzun illər aparılmış ”islahatların” və səhv təbliğatın nəticəsidir. Amerika və Avropa fondlarından maliyyələşən bəzi QHT-lərin nümayəndələri, ”hüquq müdafiəçiləri” uşaqlara, onların hər cür hüquqlarının olduğunu, onlara heç kimin heç nə deyə bilməyəcəyini aşılayırlar. Onların beyninə ”istədiyinizi edə bilərsiniz, müəllim kimdir ki, sizə nəsə desin, valideyniniz belə sizə heç nə edə bilməz” tipli məlumatlar yerləşdirirlər.

Hazırkı vəziyyətdə yaxın gələcəyi təsəvvür etmək o qədər də çətin deyil. Belə biabırçı hallara son qoyulmalıdır. Təhsilin üzərində aparılan eksperimentlər dayandırılmalı, məktəblərin tərbiyə səlahiyyətləri bərpa edilməlidir. Məktəblərlə yanaşı, valideynlər də uşaqlara tərbiyə verməlidir. Bu kimi halların qarşısı alınmazsa, gələcəkdə kriminal ünsürlərin sayı artacaq, cəmiyyətdə mənəvi deqradasiya daha da sürətlənəcək.

Başa düşməliyik ki, biz insan yetişdirməliyik, beyinləri müxtəlif biliklərlə doldurulan zombilər yox. Eyni zamanda, biz tərbiyədən əlavə olaraq, təhsil də verə bilmirik. Orta məktəblərin təhsil göstəriciləri biabırçı həddədir. Hətta 150-200 balla, yəni 5 ballı şkala üzrə 1-2 qiymətlə universitetlərə daxil olma səviyyəsinə qədər enmişik. Savadsız kütlənin ali məktəblərə daxil olunması prosesi asanlaşır və sabah bu savadsız adamlar bizi idarə edəcək.

# İqor Korotçenko: ”Qərbin maskası düşdü və ermənipərəst mövqeyini açıq göstərdi”

**Xəbər verildiyi kimi, Avropa İttifaqı Şurası 27 ölkənin xarici işlər nazirləri səviyyəsində Ermənistana yeni monitorinq missiyasının göndərilməsi barədə razılığa gəlib. Aİ diplomatiyasının rəhbəri Josep Borrell bildirib ki, ”Aİ missiyasının yaradılması Avropa İttifaqının Cənubi Qafqazdakı səylərində yeni mərhələyə başlayır”. Missiyanın mandatı ”daimi patrullar aparmaq və vəziyyətlə bağlı Brüsselə hesabat verməkdir”. Borrelin sözlərinə görə, bu, Aİ-nin ərazidəki vəziyyətlə bağlı anlayışını artırmalıdır. Missiyanın mandatı 2 ildir.**

Missiya Ermənistanla Azərbaycan arasındakı bütün şərti sərhədi əhatə edəcək. Yalnız missiyanın ilk 4 ayı üçün Aİ 8,1 milyon avro ayıracaq. Aİ qaydaları Avropa İttifaqının üzvü olmayan dövlətlərin də missiyada iştirak etməyə icazə verir.

Azərbaycan prezidenti İlham Əliyev yanvarın 10-da milli mətbuata müsahibəsində bildirib ki, Avropa İttifaqı Bakını mahiyyətcə aldadıb. O, İttifaqın hərəkətlərini manipulyasiya və saxtakarlıq adlandırıb, çünki Brüssel Aİ-nin monitorinq missiyasının ötən ilin sonunda Ermənistan-Azərbaycan sərhədinə qısamüddətli göndərildiyini bəyan edib. Amma bir müddət sonra Aİ nümayəndələri onun uzadılmasının zəruriliyindən danışmağa başladılar. Daha sonra Əliyev qeyd edib ki, Aİ-nin Ermənistana göndərilməyə hazırlanan yeni monitorinq missiyası Bakı ilə razılaşdırılmayıb. Əliyevin sözlərinə görə, belə bir missiyanın göndərilməsi ”çox xoşagəlməz faktdır və bu, təhlükəsizliyi artırmayacaq, əksinə, Azərbaycan-Ermənistan-Aİ danışıqlarının formatı ciddi sarsıntı keçirəcək”.

Tanınmış rusiyalı politoloq, Milli Müdafiə jurnalının baş redaktoru İqor Korotçenko ”Moskva-Baku” portalına vəziyyəti şərh edib. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.

***- Aİ diplomatiyasının rəhbəri Borrell artıq bildirib ki, "missiyanın yaradılması Avropa İttifaqının Cənubi Qafqazdakı səylərində yeni mərhələyə başlayır". Bütün bunlar nə deməkdir?***

- Bu bədnam missiya Avropa İttifaqının Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək və Ermənistanı dəstəkləmək üçün atdığı yeni addımdır. Biz görürük ki, Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli bəyanat imzalandıqdan sonra iki ildən çoxdur ki, İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək üçün heç bir iş görməyib. Əksinə, bütün bu müddət ərzində Ermənistan Azərbaycanı təxribata çəkir, razılaşmaları pozur.

İndi söhbət aşağıdakı ssenarinin həyata keçirilməsindən gedir: birinci mərhələdə bu missiya Ermənistana geniş tərkibdə gələcək. Bundan sonra, Ermənistan bu missiyanın müşahidə missiyasından hərbi missiyaya çevrilməsini təmin etməyə çalışacaq. Aydındır ki, Ermənistanla Rusiya arasında müttəfiqlik münasibətlərinin səviyyəsində fasilə və ya azalma, ola bilsin ki, Gümrüdəki Rusiya hərbi bazasının bağlanması və İrəvanın KTMT-dən çıxması ilə nəticələnəcək. Bütün bunlar Aİ-nin Ermənistan siyasətində iştirakının daha da genişləndirilməsi və Ermənistan-Azərbaycan təmas xəttinin yeni ”müşahidəçilər”lə, de-fakto isə Ermənistanın pərdəsi altında Aİ-nin silahlı kontingentləri ilə gücləndirilməsi ilə müşayiət olunacaq. İrəvan təxribatları davam etdirəcək və əlavə olaraq Rusiyanın Qarabağdakı sülhməramlı missiyasının Qərb hərbi kontingentinin iştirakı ilə dəyişdirilməsini tələb edəcək. Güman edirəm ki, bunu hətta Ermənistanın özü deyil, Qərbin qərar qəbul edən mərkəzləri icad edib. Paşinyan Qərbin bütün istəklərini yerinə yetirəcək, xüsusən ona görə ki, onun komandası birmənalı olaraq anti-Rusiya, qərbyönlüdür və Rusiya, Azərbaycan və Ermənistan liderlərinin zirvə görüşləri zamanı dəfələrlə müzakirə olunan və sənməd üzərində qeyd olunmuş razılaşmalara əməl etmək niyyətində deyil.



***- Avropa Parlamenti Aİ-nin Cənubi Qafqaz siyasətinə dair iki sənəd qəbul etdi. Hər ikisi tamamilə anti-Azərbaycandır. Amma maraqlıdır ki, Rusiya və Azərbaycan bu sənədlərdə tənqid baxımından əlaqələndirilir. Belə çıxır ki, Qərbin Qafqaza missiya göndərməkdə və digər tədbirlərdə son məqsədi Rusiya sərhədləri yaxınlığında sabitliyi pozmaqdır?***

- Son məqsəd regionda Qərbin hökmranlığıdır. Rusiyanı sıxışdırıb çıxarmaq cəhdi, onun üçün yeni destabilizasiya zonası yaratmaq, Azərbaycanın xarici və müdafiə siyasəti sahəsində suveren qərarlar qəbul etməsinə məhdudiyyətlər yaratmaq. Azərbaycanın milli maraqlarının, milli təhlükəsizliyinin təmin edilməsində ən mühüm qərarların qəbulunda əlqolunu bağlamaq. Bütün bu hərəkətlər silsiləsi, müvafiq qərarların qəbulu məntiqini təhlil edəndə Moskva və Bakının vahid mövqedən çıxış etdiyini nəzərə alsaq, yekun məqsəd budur. Bölgədə xarici xarici oyunçulara ehtiyacımız yoxdur. Bütün məsələlər müstəsna olaraq region dövlətləri tərəfindən həll edilməlidir. Aİ missiyasının Ermənistana göndərilməsi digər məsələlərlə yanaşı, Şimal-Cənub nəqliyyat dəhlizi də daxil olmaqla ən mühüm logistika layihələrinin icrasını pozmaq istəyini nəzərdə tutur. Bu marşrut Rusiya üçün Avropa ilə əlaqənin kəsilməsi şəraitində son dərəcə vacibdir. Ona görə də bu, həm Rusiyanın, həm Türkiyənin, həm də Azərbaycanın maraqlarına- ümumiyyətlə, Ermənistan istisna olmaqla, regionun bütün ölkələrinə zərbədir.

- Deyə bilərik ki, maskalar atılıb, çünki əvvəllər Avropa İttifaqı Cənubi Qafqazdakı siyasəti ilə bağlı hələ də daha çox üstüörtülü formalar verirdi, indi isə bu formalar heç gizlədilmir- Rusiyanı sıxışdırmaq üçün.

- Maskalar çoxdan düşürülüb. Paşinyanın bəzi açıqlamaları, onun ”sülh” planı bizi nə vaxtsa aldadıbmı? Bu ikiüzlü siyasətin mahiyyətini hər kəs mükəmməl başa düşür. Həmin ”qurban”ın özünün təcavüzkar olması və Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirməsi fonunda yalanlar, manipulyasiyalar və özünü qurban kimi qələmə vermək, işğal etdiyi ərazilərdə olan hər şeyi vəhşicəsinə məhv etməsi. Buna görə də heç kim və heç nə təəccübləndirmir. Bu maska çoxdan var və ölkədə kimin-Paşinyanın, Sarkisyanın, Köçəryanın hakimiyyətdə olmasından asılı olmayaraq. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək istəyən az-çox ağlı başında olan siyasətçi var idi- bu, Levon Ter-Petrosyandır. Sonrakı nəsillərin hamısı revanşistdir. Paşinyan qlobal erməni diasporunun eyni dağıdıcı kursunu davam etdirir. ABŞ və Fransada tamamilə mafiya prinsipi ilə təşkil olunub.

Avropa İttifaqının maskalarının atılmasına gəlincə, Aİ öz milli maraqlarını güdür. Bəzi Aİ ölkələri var ki, obyektiv olaraq Azərbaycanla yaxşı münasibətlərin tərəfdarıdırlar. Xüsusilə, enerji təhlükəsizliyi sahəsində və s. Və açıq şəkildə anti-Azərbaycan mövqeləri ilə çıxış edən ölkələr var. O cümlədən Fransa.

Fransanın vaxtilə Əlcəzair xalqının soyqırımı ilə necə məşğul olduğu hamıya məlumdur. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzairdə olarkən ekspozisiyasında fransız müstəmləkəçilərinin vəhşiliklərini əks etdirən muzeyə baş çəkib. Ermənistan tərəfinin işğalı zamanı Azərbaycan ərazilərini nəyə çevirdiyini öz gözlərimlə gördüm: bütöv şəhərlər, evlər bünövrəsinə kimi dağıdılıb, dini abidələr, mədəniyyət abidələri, qəbiristanlıqlar dağıdılıb. Mən belə qəddar münasibət görməmişdim. Belə bir siyasət bu gün gördüklərimizin mahiyyətini əks etdirir. Heç nə dəyişmədi. Genişlənmə, hökmranlıq, problemlərini qonşuların hesabına həll etmək. Və bu baxımdan Ermənistan təəssüf ki, uğurla işləyir, Avropadakı erməni diasporu isə bu sahədə fəallıq göstərir.

***- Sergey Lavrov böyük mətbuat konfransında dedi ki, Rusiya ilə Qərb arasında qlobal münaqişənin, bu gün müşahidə etdiyimiz o geosiyasi proseslərin son benefisiarı ABŞ-dır. Cənubi Qafqazda da belədir?***

- Əlbəttə, biz Blinkenin Azərbaycan prezidentinə etdiyi bütün bu çağırışları, Vaşinqtonda verilən bəyanatları görürük. Onlar təəssüf ki, Azərbaycana qarşı düşməndirlər. ABŞ ”parçala və hökm sür” prinsipi ilə fəaliyyət göstərir. Vaşinqton müstəqil Rusiyanı, müstəqil Türkiyəni, müstəqil Azərbaycanı sevmir. Suveren qərarlar qəbul edən və ölkələrimizə suveren qərarlar verən liderlər rəhbərlik edən istənilən ölkə Qərbin güc mərkəzlərinə etiraz edir. Əlinizdə plastilin Paşinyan olanda, ondan başqasının əli ilə hər hansı bir fiqur heykəl qoya biləcəyiniz bir şeydir, lider qranit kimi olanda bu, tamam başqa şeydir: ondan nəsə qəlibləməyə çalışanız bu mümkün olmayacaq.

***- Vəziyyət daha da pisləşəcəkmi?***

- Məncə bəli. Lakin təlatümlərə baxmayaraq, Rusiya və Azərbaycan ekspert məsləhətləşmələri, ekspert diplomatiyası çərçivəsində də daha sıx təmaslara keçməlidir. Mən bu barədə dəfələrlə danışmışam. Aydındır ki, ölkələrimizin rəhbərlərinin diqqəti xarici şəraitə yönəlib. Rusiya əsasən Ukraynadakı xüsusi hərbi əməliyyat problemlərinin həllinə, Qərblə qarşıdurmaya yönəlib. Hazırda Azərbaycan Avropa İttifaqı, ayrı-ayrılıqda Fransa, ABŞ ilə münasibətlərdə diplomatik yolla öz milli maraqlarını qətiyyətlə müdafiə etməlidir. Amma biz ekspert icması öz milli suveren maraqlarımızı müdafiə etmək üçün Rusiya ilə Azərbaycan arasında yeni qarşılıqlı fəaliyyət formatlarına daxil olmalıyıq.

***- Konkret olaraq, təzyiqlərin bu qədər sürətlə artması və regionda sabitliyi pozmaq cəhdləri və Ermənistan-Azərbaycan nizamlanması prosesi fonunda Azərbaycan necə davranacaq?***

- Düşünürəm ki, bu, diplomatik və güclü tədbirləri birləşdirəcək. Bu, tamamilə göz qabağındadır və bu düzgün taktikadır. Diplomatik üsullarla birləşən güc əməliyyatı Bakıya Ermənistanla münasibətlər yolunda uğur gətirməlidir. Ona görə də belə ikili hərəkət etmək lazımdır.

***- Biz Aİ-nin Azərbaycana qarşı belə, tamamilə çirkin siyasətini görürük və eyni zamanda, paralel olaraq, Bakının bütün bunların fonunda paralel, sözün əsl mənasında əməkdaşlıq etdiyini söyləmək olar, halbuki digər sahələrdə Aİ ilə mənfi münasibət var.***

- Azərbaycan müdafiədən tutmuş iqtisadiyyata, maliyyə sisteminə qədər milli suverenlik siyasətini gücləndirməlidir. Təhlükəsizlik təhdidlərini təhlil etməli və elə hərəkət etməlidir ki, bu təhdidlər vasitəsilə heç kim ona təzyiq göstərməsin. Müasir dünyada hər şey asan deyil. Ona görə də Azərbaycan Aİ ilə münasibətlərdə dəqiq xarici siyasət planlaması aparmalıdır. Azərbaycan dostları da, düşmənləri də aydın görməlidir. Bu, tamamilə aydındır. Ona görə də şübhəsiz ki, ekspert analitikası bu gün böyük əhəmiyyət kəsb edir və yalnız dövlət qərar qəbuletmə mərkəzlərinə etibar etmək düzgün olmazdı.

Qərbin gücü nədir- Avropada və ABŞ-da özəl tədqiqat və analitik mərkəzlər müəyyən qərarların qəbulu üçün analitik dəstək dövrəsinə cəlb olunurlar. Və burada həm Rusiya, həm də Azərbaycan üçün eyni yolla getmək lazımdır.

***- Amma bir ildən çoxdur ki, Rusiya-Azərbaycan Ekspert Şurası yaradılıb...***

- Mən bu ekspert şurasının üzvü deyiləm və onun işini qiymətləndirmək mənim üçün çətindir. Eyni zamanda qeyd etmək istərdim ki, Cənubi Qafqazda təhlükəsizlik sisteminin gücləndirilməsi üçün effektiv həllərin işlənib hazırlanmasına töhfə verə biləcək digər ekspert və analitik strukturlar da var.

***- Bu yaxınlarda Azərbaycan XİN bəyan etdi ki, Ermənistan ərazi iddialarından əl çəkmir.***

- Şübhəsiz ki. Onun ərazi iddiaları sadəcə olaraq kamuflyaj edilir. Qərb hərbi kontingentini daha da Ermənistana cəlb etmək, onu Azərbaycanla təmas xətti boyunca yerləşdirmək və eyni zamanda əlavə olaraq Rusiya sülhməramlılarını Qarabağda Qərb kontingenti ilə əvəz etmək cəhdi İrəvanın əvvəlki siyasətini davamıdır. Ermənistan onsuz da Rusiyaya və KTMT-yə arxalanmaq istəyir, çünki biz İrəvan üçün oynayan kukla deyilik , bu funksiyanı Avropa İttifaqı və bütövlükdə Qərb yerinə yetirməyə çalışır.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb*

SƏS
27 yanvar
2023-cü il

# Braziliyalı futbolçu "Neftçi"də!



"Neftçi" heyətinə yeni futbolçu cəlb edib. Paytaxt klubunun mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, Bakı təmsilçisi braziliyalı hücumçu Mateus Saldanyanın transferini tamamlayıb.

Qeyd edək ki, 25 yaşlı futbolçu son olaraq Yaponiyanın "Cef Yunayted İtixara Tiba" klubunda oynayıb.

# Hansı uşaqların qrip virusuna yoluxması təhlükəlidir?



"Qrip dediyimiz xəstəlik influenza virusunun törətdiyi mövsümi xəstəlikdir. Virusun influenza A,B,C tipləri vardır ki, pandemiyaları törədən, ən çox yayılan növləri influenza A və B-dir". SİA xəbər verir ki, bu sözləri mütəxəssis pediatr Yüksel Hüseynli deyib. Onun sözlərinə görə, bu əsasən oktyabr ayının sonundan mart ayının sonuna qədərki dövrdə geniş yayılır: "Yüksək yoluxuculuq qabiliyyətinə malik olan virusdur. Hər il rast gəldiyimiz bu virus Covid-19 pandemiyası dövründə qapanmalar səbəbi ilə az rast gəlinsə də, qapanmaların bitməsi, havaların soyuyub insanların qapalı mühitlərdə, iş yerləri, baxça və məktəblərdə kollektiv mühitdə olması səbəbi ilə hal-hazırda pik səviyyədə yayılıb".

Yüksel Hüseynli sözlərinə belə davam edib: "Qrip həm müalicəsi, həm də peyvəndi olan xəstəlikdir. Adından məlum olduğu kimi, virus mənşəli olduğu üçün müalicədə antibiotikdən istifadə olunmur. Xəstəliyə yoluxmadan sonra kollektiv immunitet əmələ gəlir, növbəti illərdə xəstəlik daha yüngül keçirilir.

Klinik olaraq :
- qoltuqaltı temperatur 38 dərəcə,
- quru öskürək,
- tərləmə,
- boğaz ağrısı,
- ümumi halsızlıq,
- burun axıntısı,
- baş ağrısı,
- ishal,
- qusma,
- kiçik yaşlı uşaqlarda narahatlıq, ağlamaq, qidadan imtina kimi hallarla özünü biruzə verir.

Xəstəliyin əlamətləri başlamadan 2-3 gün əvvəldən artıq yoluxmuş oluruq. Yoluxma hava-damcı yolu ilə asqırma, öskürmə, danışma ilə havaya keçən virus damcıları ilə baş verir.

Klinik əlamətlər 7-10 gün davam edir. Xəstəlikdən əvvəlki 1 gün və sonrakı 7 gün yoluxuculuq qabiliyyəti yüksək olan dövrdür ki, bu müddətdə uşaqları baxçaya, məktəbə göndərməməli, özümüz isə istirahət etməliyik. Xəstəlik uşaqlarda otit, sinusit, pnevmoniya, bronxiolit kimi xəstəliklərə törədə bilir. Xəstəlik qısa müddətdə özünü sərhədləsə də, uşağın immun sistemindən, virus yükündən asılı olaraq keçirdiyi xəstəliklər uzun müddət davam edə bilər. Xüsusilə öskürək ən gec sağalan əlamətlərdəndir.
- 6-24 ay arası körpə uşaqlar
- İmmun yetməzliyi olan
- Anadangəlmə ürək qüsuru olan
- Xroniki ağciyər xəstəlikləri olan(astma,kistik fibrozis)
- Endokrin xəstəliklər(Diabet)
- Metabolik xəstəliklər
- Neyrodegenerativ xəstəlikləri olan uşaqlar bu xəstəliyi daha ağır keçirə biləcəkləri üçün risk qruppasına daxildirlər. Bunun üçün, bu şəxslərin və onlara qulluq edən, onlarla yaxın təmasda olan ailə üzvlərinin qrip peyvəndi vurdurması vacibdir".

*Ayşən Vəli*

# Goranboyda 47 yaşlı qadını bıçaqla öldürdülər



Yanvarın 26-sı saat 14 radələrində Goranboy rayonunun Baxçakürd kəndi ərazisində 1976-cı il təvəllüdlü Sevinc Məmmədovanın bıçaqla qətlə yetirilməsi barədə polisə məlumat daxil olub. SİA-nın məlumatına görə, Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən 1974-cü il təvəllüdlü Ataş Ələkbərov saxlanılıb.

Qeyd edilib ki, hadisə şəxsi münasibətlər zəminində baş verib. Faktla bağlı araşdırma aparılır.

## ELAN

Qiyasov Rasəf Qurban oğluna məxsus M. S. Ordubadi küçəsi 7 ünvanında yerləşən həyətyanı torpaq sahəsinin reystr nömrəsi 911013003206 olan 07.05.2014 -ci il də verilmiş plan ölçü itdiyi üçün etibarsız sayılır.

***

Qərb Universiteti tərəfindən 1999-cu ildə Politologiya ixtisasını bitirmiş Məmmədov Elşad Şahbaz oğluna təqdim olunan diplom itdiyi üçün etibarsız sayılır.

# Sosial şəbəkələrə nəzarət mexanizmi necə tənzimlənməlidir?




"Sosial şəbəkələrə nəzarətin həyata keçirilməsi çox mürəkkəb prosesdir. Bütün dünya hazırda bunun ətrafında müzakirələr aparır, üsullar axtarır, elə etməyə çalışır ki, burada ifadə, media azadlığı prinsiplərinə xələl gəlməsin. Lakin gərəksiz qanun pozuntusu ilə müşayiət edilən fəaliyyətlər də əngəllənsin. Əlbəttə ki, bunu bir-birindən ayırd etmək çox çətindir. O baxımdan da nəzarət mexanizmləri ilə bağlı vahid, oturuşmuş hamının qəbul edəcəyi mexanizmlər yoxdur. Yəni, Azərbaycan da təbiidir ki, istisna deyil". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib.

Onun sözlərinə görə, Azərbaycanda da sosial mediaya dövlətin, yaxud da müvafiq dövlət qurumlarının, eləcə də vətəndaş cəmiyyətinin necə nəzarət edə biləcəyi haqqında aydın fikir təsəvvür yoxdur: "Amma vaxt-vaxtdan biz fikirlərimizi səsləndirir, tam olmasa da, müəyyən məsələlərin tənzimlənməsi, özəlliklə də sui-istifadənin qarşısının alınması üçün təkliflərimizi veririk və o təkliflərin gerçəkləşdirilməsi, həyata keçirilməsi bizə görə real nəticələr verə bilər. Məsələn, söhbət əlbəttə ki, insanların özünü ifadəsi üzərində nəzarətdən getmir, sui-istifadəyə qarşı nəzarətdən gedir. Bu nəzarətin həyata keçirilməsi üçün atılacaq ilk addım sosial media hesablarında istifadəçilərin şəxsiyyət vəsiqəsi ilə, fin kodla qeydiyyatdan keçməsini təmin etməkdir. Yəni, istənilən şəxs sərbəstdir, azaddır, amma qeydiyyatdan keçərkən mütləq şəxsiyyətini təsdiq etməlidir".

Azər Həsrət sözlərinə belə davam edib: "İkinci bir tərəfdən kimlərsə çıxıb deyə bilər ki, belə qeydiyyatdan keçmə insanları qorxuda, çəkindirə bilər və sairə. Elə biz də istəyirik ki, çəkindirmə olsun. Niyə? Ona görə ki, qanuni fəaliyyətlə məşğul olanların hər hansı bir problemi olan deyil, zatən də yoxdur. Yəni, hər kəs qanun çərçivəsində sosial mediadan istifadə edir, özünü ifadə edir, tənqidlərini səsləndirir, yazır, paylaşır, fərqli fikirlərini paylaşır və ona görə heç kim onları təqib etmir, incitmir. Amma bir çox insanlar var ki, onlar sosial mediadan sui-istifadə edirlər və bu sui-istifadəni edərkən də öz kimliklərini gizlədirlər. Həmin o kimliyin gizlədilməsinin qarşısını almaq və sui-istifadəni əngəlləmək üçün istifadəçilərin şəxsiyyət vəsiqəsi ilə yəni, şəxsiyyətini təsdiq edən rəsmi sənədlə qeydiyyatdan keçməsi üsulunu tətbiq etmək olar. Bu üsul tətbiq edildən sonra sizi əmin edirəm ki, insanlar, istifadəçilər yəni, o sui-istifadə edənlərin böyük əksəriyyəti artıq daha məsuliyyətli davranmağa başlayacaq. Onlar buna məcbur olacaqlar. Çünki adamlar artıq başa düşəcək ki, onlar gizli ad altında kimisə təhqir edə bilirdilərsə, öz adları altında təhqir edə bilməyəcəklər, yalan, böhtan yaya bilməyəcəklər, ictimai rəyi çaşdırıb ajiotaj yarada bilməyəcəklər ki, buna görə məsuliyyətləri var.

Mən düşünürəm ki, nəzarət etmək əlbəttə o mənada yox ki, senzura tətbiq olunsun, sadəcə olaraq, sui-istifadəyə qarşı nəzarət etmək üçün bu üsuldan istifadə çox effektiv ola bilər. Bəli, ondan sonra da başqa üsullar haqqında da düşünmək olar ki, sosial media, sosial şəbəkələr, bütövlükdə insanlar üçün həqiqətən də faydalı platforma olaraq qalsın. Daha dələduzlar üçün atını sağa-sola çapmağa bir meydana çevrilməsin".

*A. Vəli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600